100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 6 (24.492)
14 fevral 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

# Azərbaycan-ABŞ strateji tərəfdaşlığı:



## regionun yeni geoiqtisadi mənzərəsini formalaşdıracaq mühüm siyasi nailiyyət

Prezident İlham Əliyev müdrik xarici siyasəti, məharətli diplomatiyası ilə Azərbaycan tarixinin ən şanlı səhifələrini yazmaqdadır. Ötən 5 il və son 6 ayın ictimai-siyasi mənzərəsi respublikamızın öz hədəf və məqsədlərinə doğru inamla irəlilədiyini göstərir. 2025-ci il 8 avqust tarixli Vaşinqton zirvəsində əsası qoyulan sülh və əməkdaşlıq körpüsü bu gün daha da möhkəmlənərək həm regional, həm də qlobal əhəmiyyətli geosiyasi faktora çevrilməkdədir. Bu, dünya tarixində misli görünməmiş siyasi nailiyyət, böyük diplomatik müvəffəqiyyətdir. Respublikamız müstəqillik dönəmindəki ən mühüm siyasi uğurlardan birinə imza ataraq dünyanın bir nömrəli ölkəsi ABŞ ilə strateji tərəfdaşlıq yoluna qədəm qoyur. Prezident İlham Əliyev fevralın 10-da Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensl‍ə görüşlərin ardından mətbuata bəyanatında da ABŞ ilə strateji tərəfdaşlığı böyük şərəf adlandırdı. Sitat: ***"Bizim üçün dünyanın ən qüdrətli ölkəsi – Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir. Biz həmçinin Prezident Trampa, Vitse-prezident Vensə və onların heyətinə Qafqazda sülhə verdikləri töhfəyə görə çox minnətdarıq. Ötən avqustda Ermənistan və Azərbaycan Ağ Evdə Prezident Trampın iştirakı ilə sülh sazişini parafladılar və biz Prezident Trampın, həmçinin şahid kimi imzaladığı Sülh haqqında Birgə Bəyannaməni imzaladıq. Artıq altı aydır ki, biz sülh şəraitində yaşayırıq. Biz sülh içində yaşamağı öyrənirik".***

Səhifə ⇨ 2

## C.H.Musayevin Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**
Cabbar Hafiz oğlu Musayev Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 9 fevral 2026-cı il*



# Azərbaycan-ABŞ strateji tərəfdaşlığı:

## regionun yeni geoiqtisadi mənzərəsini formalaşdıracaq mühüm siyasi nailiyyət

*(əvvəli 1-ci səhifədə)*

Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin fevralın 10-da ölkəmizə səfəri regionun yeni iqtisadi trayektoriyasının müəyyənləşdirilməsi baxımından olduqca mütərəqqi addımların atılması ilə yadda qaldı. Ən önəmlisi isə 6 aydır, davam edən prosesin böyük nailiyyətlə yekunlaşması, Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması oldu. Bununla da iki ölkə arasındakı münasibətlərdə yeni səhifə açıldı. Tərəflər regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqların əhəmiyyətini təsdiqlədilər. Özündə 5 əsas məqsədi ehtiva edən bu xartiya təkcə ikitərəfli əlaqələri gücləndirəcək diplomatik sənəd deyil, həm də ümumi regionun mənzərəsini yenidən formalaşdıracaq sülh, əməkdaşlıq xəritəsidir.

Birgə fəaliyyətə dair regional bağlantılar dedikdə enerji, ticarət və tranzit daşınmaları nəzərdə tutulur ki, bu xüsusda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) əhəmiyyəti olduqca böyükdür. ABŞ-nin marşrutun rentabelliyini artırmaq məqsədilə respublikamızla birgə əməkdaşlıq təşəbbüsləri ilə çıxış etməsi təsadüfi deyil. Təbii ki, Azərbaycanın müasir nəqliyyat infrastruktur imkanları ilə bu gün həmin marşrutun əvəzolunmaz parçasına çevrilməsi "Super gücü" maraqlandırmaya bilməz. Bəli, görünən odur ki, Avropa və Asiya arasında ticarət körpüsü yaradan respublikamız Orta Dəhlizin yükaşırma qabiliyyətinin artırılması istiqamətində həyata keçirdiyi işlər, xüsusilə də Bakı-Tbilisi-Qars dəmir yolunun müasirləşdirilməsi yönündə atdığı addımlarla Avrasiyanın nəqliyyat xəritəsini formalaşdırmaqla okeanın o tayı üçün də siyasi, iqtisadi cazibə yaratmağı bacarıb.

Bu gün Çin də daxil olmaqla Orta Asiya ölkələri Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun imkanlarından istifadə edərək premium Avropa bazarına çıxış əldə edirlər. Məhz bütün bu cəhətləri nəzərə alsaq, ABŞ-Azərbaycan əlaqələrinin inkişafı baxımından Orta Dəhlizin önəmli yer tutacağı qənaətinə gələ bilərik. Digər tərəfdən, 8 avqust Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmalara əsasən Zəngəzur dəhlizi, digər bir adı ilə desək, TRIPP layihəsi də artıq reallaşmaq mərhələsindədir ki, bu da Orta Dəhlizin əhəmiyyətinin regional və qlobal səviyyədə kifayət qədər artacağından xəbər verir. Başqa sözlə, yaxın gələcəkdə Cənubi Qafqaz regionu ABŞ, Çin kimi dünya iqtisadiyyatının nəhənglərinin də yer aldığı böyük əməkdaşlıq mərkəzinə çevriləcək. Azərbaycan isə Çinlə yanaşı, ABŞ ilə də strateji tərəfdaşlıq yoluna qədəm qoymaqla həm Naxçıvanla ölkəmizin əsas ərazisi arasında quru bağlantısına nail olacaq, həm də tranzit ərazi statusunu daha da möhkəmləndirməklə yeni siyasi, iqtisadi dividendlər qazanacaq.

Dünyanın "Super gücü"nü Azərbaycanla yaxınlaşdıran digər strateji məqam isə, heç şübhəsiz, respublikamızın müəllifi olduğu enerji layihələridir. Bu məqamda onu xüsusi vurğulamaq yerinə düşər ki, ölkəmizin Avropanın enerji təchizatında mühüm rola malik, enerji sahəsində uğur hekayəsi adlandırılan Cənub Qaz Dəhlizinin reallaşması yönündə ABŞ-nin, o cümlədən Donald Trampın böyük dəstəyi olub. Tramp layihənin rəsmi açılışı olduğu 2018-ci ildə Prezident İlham Əliyevə ünvanladığı məktubda həmin ili enerji sahəsində uzun müddətdir, davam edən ABŞ-Azərbaycan əməkdaşlığında inanılmaz bir nailiyyət kimi dəyərləndirib: ***"Enerji sahəsində illərlə davam edən əməkdaşlığımız bu il inanılmaz bir nailiyyət kimi, Avropanın zəruri enerji təhlükəsizliyini təmin edəcək ilk qazın Cənub Qaz Dəhlizi vasitəsilə nəqli sayəsində zirvəyə yüksəlmişdir".*** İmzalanan 10 fevral 2026-cı il tarixli Azərbaycan-ABŞ strateji tərəfdaşlıq xartiyasında Cənub Qaz Dəhlizi üzrə birgə əməkdaşlığın vacibliyinin vurğulanması da bu baxımdan təsadüfi deyil, mövcud əlaqələrin yeni mərhələdə inkişaf edəcəyini göstərən faktordur. Digər tərəfdən, ölkəmiz Cənub Qaz Dəhlizi vasitəsilə 16 ölkənin enerji təhlükəsizliyini təmin edir ki, onların 11-i NATO-nun üzvü, ABŞ-nin müttəfiqidir. Bu nöqteyi-nəzərdən də iki ölkə maraqları böyük məna kəsb edir.

ABŞ-nin Azərbaycanla strateji tərəfdaşlığını rəsmiləşdirən amillərdən biri də, heç şübhəsiz, ölkəmizin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi, verdiyi vədlərə əməl etməsidir. Bu həm sülh, həm də əməkdaşlıq istiqamətinə aiddir. Respublikamız 6 ay bundan öncə Vaşinqtonda imzaladığı Sülh haqqında Birgə Bəyannaməyə sadiq qalaraq ötən dövrdə Ermənistanla davamlı sülhün bərqərar edilməsinə nail olub. Bu dövrdə qarşı tərəfin atəşkəsi pozmaması və itkinin olmaması mühüm göstəricidir. Digər tərəfdən, ölkəmiz münasibətlərin nizama salınmasına dair Ermənistanı təşviq edən jestlərlə də çıxış edib. Azərbaycan vasitəsilə Ermənistana gedən yüklərin tranzitinə nəinki bütün məhdudiyyətlər aradan qaldırılıb, o cümlədən respublikamız Ermənistana neft məhsullarının təchizatına da başlayıb. Özlüyündə bu nüanslar ölkəmizin regionda dayanıqlı sülh və əməkdaşlıq mühitinin formalaşdırılmasında əsas maraqlı tərəf olduğunu ortaya qoyur. Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin Bakıda mətbuata bəyanatında "Düşünürəm ki, gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir" deməsi də ölkəmizin 6 aylıq sülh missiyasına birmənalı etimadın və dəstəyin ifadəsidir.

Ümumilikdə, Azərbaycanla ABŞ arasında imzalanan strateji tərəfdaşlığa dair xartiya göstərir ki, respublikamızla ikitərəfli və çoxtərəfli əməkdaşlıq ABŞ Prezidentinin missiyasının və xarici siyasətinin əsas məqsədlərindəndir. Bu bir daha ABŞ-Azərbaycan münasibətlərinin dayanıqlı olduğunu və yüksələn xətlə inkişaf edən əlaqələrin gələcəkdə xalqlarımız üçün böyük faydalar verəcəyini sübut edir. Bu mühüm dövlət sənədinə dair ölkələr müdafiə, təhlükəsizlik, hərbi, enerji, nəqliyyat, süni intellekt, özəl sektor, bir sözlə bütün istiqamətlərdə dərin əməkdaşlıqlar quracaqlar. Təbii ki, bütün bu əməkdaşlıqların dərinləşməsi baxımından Zəngəzur dəhlizinin reallaşması böyük önəm daşıyacaq. Ən əsası isə odur ki, birgə fəaliyyətə dair niyyət və iradə, eləcə də ilkin nəticələr vardır. Bütün bunlar əminlik yaradır ki, 8 avqust 2025-ci il Vaşinqton Sülh Sammitinin məntiqi davamı kimi, 10 fevral 2026-cı il təqvimi Azərbaycan-ABŞ münasibətlərində inkişafın yeni mərhələsini təsdiqləyən mühüm siyasi nailiyyət kimi tarixə həkk olunacaq. Prezident İlham Əliyevin dediyi kimi: ***"Bağlantılara gəldikdə, artıq qeyd etdiyim kimi, TRIPP layihəsi regionda sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olacaq. Biz müdafiə məhsullarının satışı sahəsində yeni səhifə açırıq və bu həmçinin perspektivlidir. Əlbəttə ki, süni intellekt mərkəzlərinin yaradılması bu gün ikitərəfli gündəliyimizin bir hissəsidir və Amerikanın aparıcı şirkətləri ilə işbirliyi quraraq artıq ilkin nəticələrimiz var. Başqa sözlə, Vitse-prezident Vensin bugünkü səfəri, imzalanmış Strateji Xartiya, danışıqların mahiyyəti, dostumuz və qonağımızın qəbulu baxımından tarixidir".***

**"Şərq qapısı"**

**Prezident İlham ƏLİYEV:**

*“Bağlantılara gəldikdə, artıq qeyd etdiyim kimi, TRIPP layihəsi regionda sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olacaq. Biz müdafiə məhsullarının satışı sahəsində yeni səhifə açırıq və bu həmçinin perspektivlidir. Əlbəttə ki, süni intellekt mərkəzlərinin yaradılması bu gün ikitərəfli gündəliyimizin bir hissəsidir və Amerikanın aparıcı şirkətləri ilə işbirliyi quraraq artıq ilkin nəticələrimiz var. Başqa sözlə, Vitse-prezident Vensin bugünkü səfəri, imzalanmış Strateji Xartiya, danışıqların mahiyyəti, dostumuz və qonağımızın qəbulu baxımından tarixidir.”*



# Strateji Tərəfdaşlıq haqqında Xartiya regionda diplomatik statikadan hüquqi dinamikaya keçidin əsasını qoyur

Yeni dünya nizamının konturlarının Cənubi Qafqazda cızıldığı tarixi bir dövrdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında 10 fevral 2026-cı ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Xartiya intellektual dərinliyi, siyasi arxitekturası və terminoloji məna yükü ilə regionda diplomatik statikadan hüquqi dinamikaya keçidin əsasını qoyan növbəti əhəmiyyəli aktlardan biri oldu.

### *Azərbaycanın beynəlxalq sistemdəki yeri Strateji Tərəfdaşlıq Xartiyasının mahiyyətində öz təsdiqini tapıb*

Prezident cənab İlham Əliyevin 5 yanvar 2026-cı ildə yerli televiziya kanallarına müsahibəsində qeyd etdiyi kimi: ***"Azərbaycan artıq yeni dövrə qədəm qoyub və öz milli maraqlarını müdafiə etmək və beynəlxalq arenada mövqeyini gücləndirmək iqtidarında olduğunu nümayiş etdirib".*** Son illərdə həyata keçirilən məqsədyönlü siyasi kursun və ardıcıl diplomatik fəaliyyətin məntiqi nəticəsi olaraq, bu gün ABŞ Azərbaycanla əməkdaşlığa yanaşmasında institusional dərinləşmələrlə bağlı real addımlar atır. Strateji tərəfdaşlığın bu formatı, əslində, rəsmi Vaşinqtonun regionda uzunmüddətli və dayanıqlı əməkdaşlığı təmin etmək üçün Bakını əsas güc mərkəzi gördüyünü göstərir. Bu Xartiya 8 avqust 2025-ci ildə Vaşinqton Sülh Sammitindən sonra formalaşan yeni reallıqlar kontekstində Azərbaycanın beynəlxalq sistemdəki funksional rolunu danmağa çalışan qüvvələri Cənubi Qafqaza münasibətdə köhnəlmiş paradiqmalar və ikili standartlar haqqında yenidən düşünməyə məcbur edəcək konseptual xəritədir. Cənab Prezidentin də dediyi kimi: ***"Azərbaycan coğrafi nöqteyi-nəzərdən böyük ölkə deyil. Lakin regionda edə bildiklərimiz, hansı töhfələri verə biləcəyimiz nöqteyi-nəzərindən biz coğrafiyamızdan daha böyüyük".***

### *Xartiya regionun geosiyasi trayektoriyasını onilliklər boyu müəyyən edəcək fundamental siyasi-hüquqi doktrinadır*

Xartiyanın başlanğıcında tərəflərin bir-birinin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını açıq şəkildə təsdiqləməsi təsadüfi deyil. Bu vurğu o mənaya gəlir ki, Azərbaycanın beynəlxalq hüququ rəhbər tutaraq ərazi bütövlüyünü təmin etməsi rəsmi Vaşinqton tərəfindən artıq bir reallıq kimi tam qəbul olunub. Bu gün Vaşinqton üçün Azərbaycan artıq regional sabitliyin dayağı, tranzit mərkəzi və təhlükəsizlik tərəfdaşıdır. Təsadüfi deyil ki, bu amil Xartiyanın geosiyasi arxitekturasında ən fundamental sütun olmaqla, Azərbaycanı beynəlxalq ticarət sisteminin yeni çağırışlarının – mərkəzi arteriyası kimi növbəti dəfə təsbit edib. Bu layihənin ən mühüm geosiyasi komponenti Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə maneəsiz bağlantısının növbəti dəfə qitələrarası tranzit sisteminin tərkib hissəsi kimi təqdim edilməsidir. Burada söhbət, sadəcə, nəqliyyat və rabitə əlaqələrinin bərpasından deyil, quru, dəniz və hava infrastrukturunun rəqəmsal və enerji bağlantıları ilə sintez olunduğu çoxformatlı bir ekosistemin yaradılmasından gedir.

Sənədin ən diqqətçəkən istiqamətlərindən biri enerji tərəfdaşlığının klassik neft-qaz çərçivəsindən çıxaraq elektrik enerjisi interkonnektorları və ən önəmlisi, mülki nüvə əməkdaşlığına keçid etməsi Azərbaycanın enerji suverenliyinin gələcək onilliklər üçün ən böyük təminatlarından biridir.

Müasir dövrdə dünya iqtisadiyyatı karbohidrogen erasından rəqəmsal və yaşıl enerji erasını təmin edən kritik xammal (litium, kobalt, qrafit, nadir torpaq elementləri və s.) erasına keçid edir. Bu resurslar süni intellekt, yarımkeçiricilər, elektromobillər və bərpa olunan enerji texnologiyalarının "qan damarı" hesab olunur. Azərbaycanın bu mineralların tranzitində ABŞ ilə əməkdaşlığı ölkəmizi qlobal texnoloji təchizat zəncirinin əsas aktorlarından birinə çevirə bilər.

### *ABŞ-Azərbaycan tərəfdaşlığı regionda rəqəmsal infrastrukturun inkişafını və yüksəkixtisaslı kadrların formalaşmasını dəstəkləyir*

Azərbaycanın geosiyasi mövqeyi artıq klassik nəqliyyat marşrutlarından rəqəmsal müstəviyə keçid üçün də böyük imkanlar yaradır. 2024-2026-cı illər ərzində Xəzər dənizinin dibi ilə çəkilən fiber-optik kabel xətləri Avropa və Asiya arasında ən sürətli və təhlükəsiz data yolunu – "Rəqəmsal İpək Yolu"nu (Digital Silk Way) formalaşdırır. ABŞ-nin bu prosesdəki dəstəyi olduqca mühümdür: Bu mənada, əməkdaşlığın yaradacağı münbit şərait ABŞ ilə birgə qurulacaq süni intellekt data mərkəzlərinin və yatırılacaq sərmayələrin yerli startapların və innovativ müəssisələrin risklərinin azalmasına, onların beynəlxalq bazarda kommersiyalaşmasına da kömək edəcək, bu da, öz növbəsində, təhsil və kadr potensialının inkişafı üzrə nəzərdə tutulan tərəfdaşlığa töhfə verərək Azərbaycanda qlobal rəqabətə dayanıqlı yüksəkixtisaslı milli kadrlar formalaşdıracaqdır.

### *Müdafiə və təhlükəsizlik sahəsindəki əməkdaşlıq ABŞ-Azərbaycan strateji tərəfdaşlığını möhkəmləndirir*

Müdafiə sənayesi və təhlükəsizlik sahəsindəki əlaqələrin institusionallaşdırılması Xartiyanın strateji çərçivəsinin ən mühüm sütunlarından biri kimi müəyyən olunub. İndiyə qədərki dövrdə Azərbaycanın beynəlxalq sülhməramlı əməliyyatlarda nümayiş etdirdiyi peşəkarlıq və etibarlı tərəfdaş imici bu gün ABŞ ilə müdafiə məhsullarının satışı da daxil olmaqla, əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi üçün möhkəm zəmin yaratmışdır. Məhz, bunun nəticəsidir ki, bu gün ABŞ regionda sülhün əsas təminatçısı kimi Azərbaycanı görür, terrorizmə qarşı mübarizə və kibertəhlükəsizlik sahəsindəki asimmetrik təhdidlərinə qarşı vahid cəbhənin formalaşmasında Azərbaycanın həmrəy mövqeyini alqışlayır.

Azərbaycan və ABŞ arasında imzalanmış bu Xartiya milli dövlətçilik maraqlarımızı qlobal sistemin yeni reallıqları ilə sintez edən və Cənubi Qafqazın taleyini onilliklər boyu sabitlik məcrasına yönəldən tarixi hadisədir. Enerji suverenliyindən rəqəmsal intibaha qədər bütün hədəflərimizi vəhdətdə birləşdirən bu əməkdaşlıq platforması Azərbaycanın həm sülhün, həm də iqtisadi rifahın sarsılmaz qalasına çevriləcəyi nurlu və möhtəşəm bir gələcəyin ən böyük təminatıdır.

**Yusif MİRZƏZADƏ**
***Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin sədri***

*Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Xartiya regionun gələcək geosiyasi və geoiqtisadi arxitekturasına birbaşa təsir göstərən mühüm siyasi sənəd kimi dəyərləndirilə bilər. Xartiya təkcə iki ölkə arasında münasibətlərin yeni mərhələyə keçidini deyil, eyni zamanda Cənubi Qafqaz və Orta Dəhliz üzərində formalaşan yeni əməkdaşlıq modelini ortaya qoyur. Bu sənədin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, regional bağlantılar konsepsiyası çərçivəsində Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz nəqliyyat və kommunikasiya əlaqələrinin təmin olunması prioritet istiqamət kimi təsbit edilir. Bu, Naxçıvanın uzun illərdir, üzləşdiyi nəqliyyat və logistika məhdudiyyətlərinin aradan qaldırılması baxımından tarixi fürsət kimi qiymətləndirilə bilər.*

# Azərbaycan-ABŞ strateji tərəfdaşlığı: Naxçıvanı regionun geoiqtisadi qovşağına çevirən yeni mərhələ

### *Naxçıvan Orta Dəhlizin açar halqasına çevrilir*

Xartiyada Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu – Orta Dəhliz üzrə əməkdaşlığın genişləndirilməsi və multimodal bağlantı layihələrinin təşviqi əsas istiqamətlərdən biri kimi göstərilir. Sənəddə qeyd olunan TRIPP marşrutu Azərbaycan ərazisindən keçən regional və beynəlxalq ticarət yollarının təhlükəsiz və dayanıqlı şəkildə fəaliyyətini nəzərdə tutur. Bu kontekstdə Naxçıvan Muxtar Respublikasının regional tranzit xəritəsində yer alması muxtar respublikanın geoiqtisadi rolunu keyfiyyətcə yeni mərhələyə yüksəldir. Naxçıvanın əsas hissə ilə maneəsiz bağlantısının təmin olunması:
- *muxtar respublikanın ixrac imkanlarını genişləndirəcək;*
- *logistika və nəqliyyat sektoruna yeni investisiyaların cəlbini sürətləndirəcək;*
- *regionda ticarət dövriyyəsinin artmasına təkan verəcək.*

### *Enerji və rəqəmsal bağlantılar: Naxçıvan üçün yeni inkişaf platforması*

Azərbaycan-ABŞ tərəfdaşlığı çərçivəsində enerji, rəqəmsal infrastruktur və data bağlantıları xüsusi yer tutur. Naxçıvanın bərpa olunan enerji potensialı – günəş və külək enerjisi imkanları nəzərə alındıqda muxtar respublikanın gələcəkdə regional enerji layihələrində iştirak etməsi real perspektiv kimi önə çıxır. Bu yanaşma Naxçıvanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsi ilə yanaşı, onu "yaşıl enerji" xəritəsində mühüm mövqeyə çıxara bilər.

Xartiyada nəzərdə tutulan süni intellekt, data mərkəzləri və rəqəmsal infrastruktur layihələri isə Naxçıvan üçün yeni iqtisadi modelin əsaslarını formalaşdırır. Rəqəmsal bağlantıların gücləndirilməsi muxtar respublikanın informasiya və texnologiya məkanına inteqrasiyasını sürətləndirə, regionda yeni ixtisaslı iş yerlərinin yaradılmasına səbəb ola bilər.

### *Təhlükəsizlik və humanitar əməkdaşlıq: regional sabitliyin dayağı*

Sənəddə təhlükəsizlik əməkdaşlığına dair müddəalar Naxçıvanın yerləşdiyi həssas geosiyasi mühit fonunda xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan-ABŞ əməkdaşlığı çərçivəsində kibertəhlükəsizlik, kritik infrastrukturun mühafizəsi və humanitar minatəmizləmə sahəsində nəzərdə tutulan addımlar regionun dayanıqlı inkişafı üçün vacib təminat rolunu oynayır. Bu əməkdaşlıq modeli Naxçıvanın təkcə nəqliyyat və enerji baxımından deyil, həm də təhlükəsizlik baxımından regional inteqrasiyasını gücləndirən amil kimi çıxış edir.

### *Naxçıvan üçün yeni geoiqtisadi status*

Prezident İlham Əliyevin uzaqgörən xarici siyasəti nəticəsində formalaşan Azərbaycan-ABŞ strateji tərəfdaşlığı Naxçıvan Muxtar Respublikasını regionun periferiyası deyil, geoiqtisadi mərkəzlərindən biri kimi mövqeləndirən yeni reallıqlar yaradır. Bu Xartiya Naxçıvanın nəqliyyat, enerji, rəqəmsal inkişaf və təhlükəsizlik xəritəsində rolunu gücləndirməklə yanaşı, muxtar respublikanın sosial-iqtisadi dirçəlişinə də güclü təkan verəcək. Bu sənəd göstərir ki, Naxçıvan artıq təkcə coğrafi məkan deyil, regional əməkdaşlığın strateji qovşağına çevrilməkdə olan geoiqtisadi aktordur.

**Əhməd ƏHMƏDOV**

# Dünya İqtisadi Forumu

## Azərbaycan üçün mühüm iqtisadi dividendlər vəd edir

***Prezident İlham Əliyevin apardığı xarici siyasətin əsas məqsədi dünyanın aparıcı ölkələri ilə yanaşı, beynəlxalq təşkilatlarla da əlaqələrin yüksələn xətlə inkişafını təmin etməkdir. Bu da, təbii ki, Azərbaycan üçün həm siyasi nüfuzun güclənməsi, həm də iqtisadi qüdrətin artırılması, o cümlədən respublikamızda ayrı-ayrı sahələrə yeni sərmayələrin cəlbi, yeni dividendlərin qazanılması baxımından olduqca vacib amildir. Beynəlxalq münasibətlər və dünya siyasəti baxımından mühüm təsir imkanlarına malik Dünya İqtisadi Forumu ilə əməkdaşlıq da məhz özündə bu müasir çağırışları, üstün keyfiyyətləri birləşdirir.***




Prezident İlham Əliyevin forumun illik iclaslarına mütəmadi olaraq dəvət alması ölkəmizin etibarlı qlobal tərəfdaş imicinin bu iqtisadi platforma tərəfindən güclü etimad qazandığını sübut edir. Bu il yanvarın 19-23-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunun növbəti illik iclası da Azərbaycan üçün mövcud iqtisadi əməkdaşlığın dərinləşməsi, yeni tərəfdaşlıqların qazanılması baxımından faydalı müzakirə və qlobal siyasi nüfuzun daha da gücləndirilməsi nöqteyi-nəzərdən mütərəqqi addımların atılması ilə yadda qaldı.

DİF-in sayca 56-cı iclasında 130-dan artıq ölkədən 3000 nümayəndə iştirak edirdi. Tədbirə 65 dövlət və hökumət başçısı daxil olmaqla, 400 siyasi lider, 850-dən çox iri şirkət rəhbəri, eləcə də qabaqcıl texnologiya sahəsində fəaliyyət göstərən nüfuzlu liderlər qatılmışdı. Özlüyündə bu geniş təmsilçilik forumun qlobal miqyasda dialoq və əməkdaşlıq üçün mühüm, cəlbedici platforma rolunu oynadığını göstərir. Prezident İlham Əliyev 4 gün ərzində dünyanın müxtəlif dövlət və hökumət başçıları, rəsmilər və şirkət rəhbərləri ilə, ümumilikdə, 19 görüş keçirdi. Bundan əlavə, "Euronews" kanalına müsahibə verdi, "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasda, "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə, Ümumdünya İqtisadi Forumu çərçivəsində panel iclasda, "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanma mərasimində iştirak etdi. Dialoqlarda respublikamızın postmüharibə dövründə regionda yaratdığı yeni reallıqlar, ikitərəfli əlaqələrin gələcək inkişafı, iqtisadi, ticari, mədəni, humanitar sahələrdə əməkdaşlıqların dərinləşdirilməsi, qlobal maliyyə bazarlarında mövcud vəziyyət, beynəlxalq investisiya mühiti və makroiqtisadi çağırışlar barədə fikir mübadilələri aparıldı, qarşılıqlı maraqdoğuran məsələlər müzakirə edildi. Dövlət başçımızın yanvarın 20-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşündə bərpa olunan enerji sektorunda fəaliyyətin, Naxçıvanın nəqliyyat sisteminin yenilənməsinin, ölkəmizin ayrı-ayrı bölgələrində məişət tullantılarının zərərsizləşdirilməsi layihələrinin maliyyələşdirilməsi ilə bağlı mövcud əməkdaşlıq perspektivləri dəyərləndirildi. Görüş zamanı bugünkü reallıqlar fonunda Naxçıvana dair məsələlərin xüsusilə diqqətə çəkilməsi, heç şübhəsiz, Azərbaycan dövlətinin bu bölgəmizlə bağlı irəli sürdüyü təşəbbüslərə beynəlxalq ictimaiyyətin nəzərini yönəltmək, dəstəyini artırmaq, regiona yeni investisiyaların cəlbinə imkanlar açmaqdır.

Davosda Prezident İlham Əliyevin "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə ölkəmizdə müasir nəqliyyat infrastrukturun yaxşılaşdırılmasına dair icra edilən layihələr, "Vestas Wind Systems" şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti Morten Dirholm ilə dialoq zamanı respublikamızda bərpa olunan enerji, xüsusilə külək enerjisi sahəsində fəaliyyətinə yeni sərmayələrin yatırılması perspektivi müzakirə predmetinə çevrildi. Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan "BTG Pactual" şirkətinin sədri Andre Esteves ilə fikir mübadilələri qlobal iqtisadi proseslər, beynəlxalq maliyyə bazarlarında mövcud vəziyyət və institusional investorların müxtəlif regionlara yanaşmasının, həmçinin inkişaf etməkdə olan bazarlarda investisiya mühitinin, uzunmüddətli investisiya yanaşmaları və qarşılıqlı investisiya layihələrinin dəyərləndirilməsi baxımından səmərəli keçdi.

Dünya İqtisadi Forumunda ən diqqətçəkən incə nüans isə Prezident İlham Əliyevlə bütün görüşlərin məhz qarşı tərəfin xahişi əsasında baş tutmasıdır. Yəni əməkdaşlıq üçün can atan, təklif irəli sürən beynəlxalq təşkilatlar, təşəbbüsün dəyərləndirməsini aparan aktor qismində çıxış edən isə məhz Azərbaycan dövlətidir. Bütün bunlar respublikamızın dünyada necə strateji əhəmiyyətə malik tərəfdaşlıq statusu qazandığını, siyasi və iqtisadi nüfuzunun qlobal səviyyədə kifayət qədər yüksəldiyini açıq aydın göstərir. Əminliklə demək olar ki, Dünya İqtisadi Forumunun 56-cı iclası ölkəmizin iqtisadiyyatının qlobal çağırışlara uyğunlaşdırılması və investisiyaların cəlb edilməsi baxımından çox əhəmiyyətli nəticələr verəcək.



Dünya İqtisadi Forumu da daxil olmaqla dünyanın bir sıra aparıcı siyasi, iqtisadi platformalarında respublikamızın rəyinin mütləq nəzərə alınması, irəli sürdüyü təşəbbüs və layihələrin dəstəklənməsi təsadüfi deyil. Bu, Prezident İlham Əliyevin strateji düşüncə və liderlik məharətinin yaratdığı yeni reallıqların həm bölgəyə, həm də qlobal miqyasa fayda verməsi baxımından gün ötdükcə daha bariz formada praktiki təsdiqini tapmasının nəticəsidir. DİF-in respublikamızla yaxınlaşması, beynəlxalq şirkət rəhbərlərinin əməkdaşlığa can atması isə həm də ölkəmizdə formalaşdırılmış azad və rəqabətqabiliyyətli iqtisadi mühit, sərbəst biznes imkanları ilə əlaqədardır. Məlum olduğu üzrə Azərbaycan zəngin təbii resurslara malik olmaqla yanaşı, bu zənginliyi mühüm iqtisadi dəyərə çevirməyi müfəssəl bacaran ölkədir. Külək, günəş və su enerjisi potensialı, "yaşıl enerji" layihələri, ənənəvi enerji resurslarının tranziti ilə bağlı imkanlardan maksimum istifadə respublikamızı dünya iqtisadiyyatının bir parçasına çevirməklə paralel, bölgəyə yeni investisiya axınına da şərait yaradır. Həmçinin Orta Dəhliz, Zəngəzur dəhlizi, nəqliyyat-logistika marşrutları ilə bağlı müvafiq şərait və yeni reallıqlar ən nüfuzlu ölkələri belə Azərbaycanla strateji tərəfdaşlıq yoluna qədəm qoymasına təşviq edir.

Bütün bu vacib amillər Dünya İqtisadi Forumunda respublikamızın yerini və rolunu zaman ötdükcə daha da gücləndirir, iqtisadi və siyasi nüfuzunu artırır. Eyni zamanda nəzərə alsaq ki, dünya nizamı yenidən formalaşır, beynəlxalq münasibətlər yeni mərhələyə qədəm qoyur, o zaman hazırkı dönəmdə güclü, etibarlı tərəfdaşlıq qazanmaq baxımından Azərbaycan-DİF münasibətlərinin möhkəmləndirilməsi olduqca vacib amildir. Prezident İlham Əliyevin yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibəsində dediyi kimi: ***"Beləliklə, qeyd etdiyiniz kimi, beynəlxalq münasibətlər bu gün yeni eraya qədəm qoyur. Bu erada vəziyyəti qanunun aliliyi deyil, güc qaydası idarə edir. Biz bunu dünyanın müxtəlif yerlərində görə bilərik. Buna görə o, bir daha göstərir ki, hər ölkə öz strategiya və siyasətini özünün potensialına uyğunlaşdırmalıdır, o cümlədən mümkün qədər çox ölkələrlə, ilk növbədə, öz bölgəsində, sonra isə qlobal müstəvidə yaxşı münasibətlər qurmalıdır. Azərbaycan məhz buna nail oldu".***

**"Şərq qapısı"**





*Prezident İlham Əliyev "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə çıxış edərək rəqəmsal inkişafın ölkənin gələcək tərəqqisi üçün əsas prioritetlərdən biri olduğunu vurğulamışdır. Dövlət başçısı qeyd etmişdir ki, müasir dövrdə süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması və rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Bu səbəbdən Azərbaycan da bu istiqamətdə fəaliyyətini daha da gücləndirməli və rəqəmsal transformasiyanı prioritet istiqamətə çevirməlidir. Prezident bildirmişdir ki, Azərbaycanın bu sahədə mühüm üstünlükləri mövcuddur. Ölkəmizin əlverişli coğrafi mövqeyi – Asiya ilə Avropa arasında yerləşməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin üzərində olması və formalaşmış geniş infrastruktur imkanları rəqəmsal bağlantılar üçün böyük potensial yaradır. Mövcud nəqliyyat və enerji dəhlizlərinin gələcəkdə fiber-optik dəhlizlərə çevrilməsi xüsusi əhəmiyyət daşıyır. Artıq Xəzər dənizinin Şərq sahilləri ilə fiber-optik kabel layihəsi icra olunur və bu, Azərbaycanın Şərq istiqamətində rəqəmsal əlaqələrini daha da gücləndirəcək.*

# Prezident İlham Əliyevin çıxışı Azərbaycanın rəqəmsal gələcəyinin strateji istiqamətlərini müəyyən edir

## Prezident İlham ƏLİYEV:

**"*Son illər ərzində müxtəlif dövlət qurumları – nazirliklər və digər dövlət qurumları tərəfindən müxtəlif platforma və tətbiqlər işlənib hazırlanmışdır. Bu işin artıq koordinasiya şəklində aparılması üçün hesab edirəm ki, buna da ehtiyac olmayacaq və yaradılmış platforma və tətbiqlər tədricən ləğv edilməlidir, hansı müddət ərzində, onu indi mənə təkliflər təqdim ediləndə təklif edərsiniz. Dövlət xidmətləri "mygov" üzərindən həyata keçirilməlidir – yəni vahid mərkəzdən. Hər kəs bunu bilməlidir – həm dövlət qurumları, həm vətəndaşlar. Bu, vətəndaşlar üçün də çox böyük üstünlük təmin edəcək. Vətəndaşa lazım olan bütün xidmətlər bir ünvandan göstərilməlidir. İndi buna nə qədər vaxt lazımdır, əlbəttə ki, bunu siz mənə bildirərsiniz. Eyni zamanda bu gün mövcud olan platformaların üstünlükləri, əldə edilmiş təcrübə və bu platformaların işlənməsində iştirak etmiş şəxslər, kadrlar da ümumi işə cəlb edilməlidir. Yəni mən əldə edilmiş nəticələri qiymətləndirirəm, amma eyni zamanda bu gün vaxt gəlib çatıb ki, bu, vahid mərkəzdə birləşsin.*"**

Dövlət başçısı transmilli şirkətlərlə əməkdaşlıq təcrübəsini də əsas üstünlüklərdən biri kimi qiymətləndirmişdir. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 350 milyard dollardan çox sərmayə yatırılmışdır və ölkədə müsbət investisiya iqlimi formalaşmışdır. Xarici və yerli sərmayələrin qorunması Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir. Bu təcrübə rəqəmsal sahədə aparıcı beynəlxalq şirkətlərlə əməkdaşlıq üçün də möhkəm zəmin yaradır.

Enerji təminatı məsələsinə toxunan Prezident İlham Əliyev qeyd etmişdir ki, son 20 ildə ölkənin generasiya gücü iki dəfəyə yaxın artaraq 10 min meqavata çatmışdır. Hazırda ən azı 2 min meqavat istifadə edilməyən generasiya gücü mövcuddur ki, bu da data mərkəzlərinin yaradılması və süni intellekt texnologiyalarının tətbiqi üçün əsas şərtdir. Azərbaycan özünü əsas enerji mənbələri ilə tam təmin edir və hətta enerji ixrac edir. Eyni zamanda bərpa olunan enerji sahəsində imzalanmış müqavilələr gələcəkdə generasiya gücünü daha da artıracaq.

Cənab Prezident qlobal maliyyə fondları və aparıcı şirkətlərlə mövcud əlaqələrin də böyük üstünlük olduğunu vurğulamışdır. Azərbaycan Dövlət Neft Fondu dünyanın ən böyük maliyyə qurumları ilə əməkdaşlıq edir və bu fondlar vasitəsilə investisiyaların ölkəyə cəlb olunması istiqamətində konkret layihələr üzərində iş aparılır. ABŞ və Azərbaycan arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası, eləcə də Avropa İttifaqına üzv 10 ölkə və Çin Xalq Respublikası ilə imzalanmış strateji sənədlər Azərbaycanın qlobal güc mərkəzləri ilə əməkdaşlığını daha da gücləndirir.

Dövlət başçısı vahid koordinasiyanın vacibliyini xüsusi qeyd etmişdir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə dövlət qurumları ilə birlikdə konkret Tədbirlər Planı hazırlamaq tapşırılmışdır. Hər bir nazirlikdə rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik üzrə məsul şəxslərin müəyyənləşdirilməsi zəruri hesab edilmişdir.

Prezident İlham Əliyev dövlət xidmətlərinin vahid "mygov" platforması üzərindən həyata keçirilməsinin vacibliyini vurğulamışdır. Müxtəlif qurumlar tərəfindən yaradılmış platformalar tədricən vahid mərkəzdə birləşdirilməli, vətəndaşlara bütün xidmətlər bir ünvandan təqdim olunmalıdır. Bu həm şəffaflığı artıracaq, həm də vətəndaş məmnuniyyətini təmin edəcək.

Kadr hazırlığı məsələsi də çıxışda əsas istiqamətlərdən biri kimi göstərilmişdir. Ali məktəblərdə və orta təhsil müəssisələrində rəqəmsal bacarıqların inkişafına daha çox diqqət yetirilməli, xaricdə təhsil proqramları çərçivəsində bu ixtisaslar üzrə mütəxəssislər hazırlanmalıdır. Gələcəkdə bu sahədə peşəkar kadrlara böyük ehtiyac yaranacağı vurğulanmışdır.

Süni intellektin dövlət idarəçiliyində tətbiqi, qərarların qəbulunda texnoloji dəstəyin artırılması və özəl sektora müvafiq təşviq mexanizmlərinin yaradılması da mühüm vəzifələr kimi müəyyən edilmişdir. Eyni zamanda kibertəhlükəsizlik sahəsinə xüsusi diqqət yetirilməli, mövcud Kibertəhlükəsizlik Mərkəzinin fəaliyyəti gücləndirilməlidir.

Prezident İlham Əliyevin çıxışı Azərbaycanın rəqəmsal gələcəyinin strateji istiqamətlərini müəyyən edir. Mövcud üstünlüklərdən səmərəli istifadə etməklə güclü enerji və infrastruktur bazasına, beynəlxalq tərəfdaşlıqlara və investisiya imkanlarına əsaslanaraq Azərbaycan rəqəmsal transformasiya sahəsində regionun aparıcı ölkələrindən birinə çevrilməyi hədəfləyir.

**Ülviyyə HƏMZƏYEVA**
*Milli Məclisin deputatı*



# Ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas prioritetləri

## *Rəqəmsal inkişaf və süni intellekt*

***Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası”nın məqsədi ölkədə süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirməkdir. Adıçəkilən Sərəncam Azərbaycanın qlobal inkişaf tendensiyalarına uyğun olaraq süni intellekt sahəsində beynəlxalq çağırışlara cavab vermək və ölkənin rəqabət qabiliyyətini artırmaq məqsədini daşıyır. Həmçinin yüksək hesablama infrastrukturunun inkişafı, süni intellektin etik və məsuliyyətli istifadəsi, qlobal standartların tətbiqi, məlumatların məxfiliyinin qorunması və innovativ həllərin risklərinin azaldılması da hədəflər arasındadır.***

***“Bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Azərbaycanda bu istiqamətdə müəyyən işlər görülüb, bu barədə bu gün danışılacaq. Ən önəmlisi gələcək fəaliyyətimizdə bu məsələni əsas prioritetlər siyahısına daxil etməyimizdir”.*** Prezident İlham Əliyevin “Azərbaycanın yeni rəqəmsal arxitekturası” adlı vahid fəaliyyət planına həsr edilən müşavirədə səsləndirdiyi bu fikirlər rəqəmsal inkişafın və süni intellektin artıq ayrıca texnoloji istiqamət deyil, ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyən edildiyini göstərdi. Ötən illər ərzində ölkəmiz neft-qaz və digər sahələrdə beynəlxalq şirkətlərlə olan əlaqələrdə böyük təcrübə qazanıb. Dövlətimiz qonşu ölkələrlə müxtəlif istiqamətlər üzrə bir çox önəmli infrastruktur layihələrini icra etməklə həm də yeni platformalar yaradıb. Dövlət başçısı süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması və rəqəmsallaşma islahatlarının qlobal miqyasda ölkələrin gələcək inkişafını müəyyən edən amillər olduğunu vurğulamaqla Azərbaycanın da bu istiqamətdə ardıcıl və sistemli fəaliyyət göstərməli olduğunu açıq şəkildə ifadə edib: ***“Asiya ilə Avropa arasında yerləşməyimiz, Şimal-Cənub dəhlizi üzərində yerləşməyimiz və yaradılmış mövcud infrastruktur bu üstünlüyü bizə təmin edir”.***





### Data mərkəzləri üçün başlıca şərt 10 min meqavatlıq generasiya gücü və ən azı 2 min meqavat sərbəst enerji potensialı

Ölkə başçısının çıxışında 10 min meqavatlıq generasiya gücü və ən azı 2 min meqavat sərbəst enerji potensialının data mərkəzləri üçün başlıca şərt kimi vurğulamağı bu sahəyə strateji yanaşmanı nümayiş etdirdi. Azərbaycanın mövcud üstünlüklərini də diqqətə çatdıran dövlət başçısı enerji generasiya gücünün artımı, istifadə olunmayan enerji ehtiyatları, geniş nəqliyyat və enerji infrastrukturu, fiber-optik bağlantıların inkişafı, müsbət investisiya mühiti və beynəlxalq tərəfdaşlıq platformalarını – süni intellekt və data mərkəzləri kimi yeni iqtisadi istiqamətlər üçün baza kimi təqdim etdi: ***“Son 20 il ərzində generasiya gücümüz, təxminən, iki dəfəyə yaxın artıb və bu gün 10 min meqavata bərabərdir. Yeni elektrik stansiyaları, – istər qaz, istər hidro, istər günəş, külək, – bu gün Azərbaycan reallıqlarını müəyyən edib. Hazırda bizim ən azı 2 min meqavat istifadə edilməyən generasiya gücümüz var ki, rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması üçün bu, başlıca şərtdir”.***

### Beynəlxalq idarəetmə təcrübəsinə uyğun sistemli yanaşma

Dünyanın bir çox inkişaf etmiş və qabaqcıl ölkələrində süni intellekt siyasəti dövlət qurumları, universitetlər və texnologiya şirkətlərinin təmsil olunduğu xüsusi ofislər və məsləhətçi şuralar vasitəsilə formalaşdırılır, bu da strateji və praktiki əsaslandırılmış qərarları təmin edir. Həmin ölkələrin təcrübəsi göstərir ki, süni intellekt siyasətinin effektiv icrası yalnız strategiyanın qəbul edilməsi ilə yox, mərkəzləşdirilmiş koordinasiya ilə mümkün olur. Dövlət başçısı həmin müşavirədə hər bir nazirlikdə rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik üzrə məsul şəxslərin müəyyənləşdirilməsi ilə bağlı tapşırıq verdi ki, bu da gələcəkdə dövlət qurumlarında bu sahədə böyük işlər görüləcəyini göstərir. Yaradılacaq qurumlar hökumətin mərkəzi icra sisteminin tərkibində fəaliyyət göstərərək milli süni intellekt strategiyasının əlaqələndirilməsinə, prioritet sahələrin müəyyən edilməsinə və icranın monitorinqinə cavabdeh olacaqlar. Bu təcrübə artıq bir çox ölkələrdə var. Gələcəkdə yaradılacaq bu qurumların əsas hədəfi dövlət qurumlarında kibertəhlükəsizlik sahəsində effektivliyi artırmaqdır: ***“Kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilməlidir. Bu sahə də kritik sahələrdən biridir. Biz keçən il çox mütəşəkkil və aqressiv kiberhücuma məruz qalmışıq. Biz onun mənbəyini də bilirik və lazımi tədbirlər də görülmüşdür ki, özümüzü bu ciddi problemlərdən qoruya bilək. Ona görə bu sahəyə ciddi diqqət göstərilməlidir. Bizdə artıq fəaliyyət göstərən Kibertəhlükəsizlik Mərkəzi var, onun işi daim diqqət mərkəzində olmalıdır”.***

### Beynəlxalq tərəfdaşlara yönəlmiş strateji mesaj

Dövlət başçısının rəqəmsal infrastrukturu və süni intellekti prioritet elan etməsi daxili idarəetmə islahatı olmaqla bərabər, həm də beynəlxalq tərəfdaşlara yönəlmiş strateji mesajdır. Amerika Birləşmiş Ştatları ilə imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasında süni intellekt, data mərkəzləri və rəqəmsal infrastruktur üzrə əməkdaşlıq istiqamətlərinin ayrıca əksini tapması, eyni zamanda Avropa İttifaqına üzv ölkələr və Çin Xalq Respublikası ilə mövcud strateji tərəfdaşlıq formatları bu sahədə çoxtərəfli əməkdaşlıq imkanlarını genişləndirir. Mövcud enerji generasiya gücü, tranzit və fiber-optik bağlantılar, eləcə də sabit investisiya mühiti süni intellekt və data mərkəzi layihələri üzrə beynəlxalq texnologiya şirkətləri və maliyyə fondları üçün Azərbaycanın praktiki və iqtisadi cəhətdən cəlbedici platforma olduğunu göstərir.

***“İndi konkret layihələr üzərində işləyirik və rəqəmsallaşma, süni intellekt sahələrində aparıcı şirkətlərin səhmlərinin bir hissəsi də dediyim ən böyük Amerika fondlarının sərəncamındadır. Bu bizim böyük üstünlüyümüzdür. O cümlədən dünən bu binada Amerika Hökuməti ilə Azərbaycan Hökuməti arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası da bu üstünlüyü bizə təmin edir. Eyni zamanda bizim Avropa İttifaqına üzv 10 ölkə ilə strateji tərəfdaşlıq sənədləri var”***, – deyən ölkə başçısı ölkəmizin son illərdə qazandığı üstünlükləri qeyd edərək dünyanın aparıcı güc mərkəzləri ilə strateji tərəfdaşlıq çalışmağın üstünlüyündən bəhs edib, bu sahəyə daha güclü təkan verilməli olduğunu vurğulayıb. Bu işdə dövlət qurumlarının qarşısındakı ən böyük vəzifə bu sahədə çox sıx koordinasiyalı şəkildə hərəkət edilməli, pərakəndəliyə yol verilməməli olunduğunu xüsusilə diqqətə çatdırıb.

### Kadr hazırlığı əsas vəzifələrdən biridir

21-ci əsr bütün sahələrdə texnoloji inkişaf əsridir. Bu dövrün tələblərinə uyğun ixtisasların seçilməsi, mütəxəssislər hazırlanması olduqca vacibdir. Azərbaycanda son illərdə bu istiqamətdə gözə çarpacaq dərəcədə işlər görülür. Təhsil sistemimizdə bu sahəyə daha böyük diqqət göstərilməklə bərabər, ali məktəblərdə bu sahə üzrə təhsil alan tələbələr dövlət vəsaiti hesabına qabaqcıl sayılan ölkələrdə xüsusi kurslara göndərilir. Nəticədə, həm Azərbaycandakı ali məktəblərdə təhsil alan, həm də xaricdə təhsil almağa göndərilən gənclər bu ixtisas üzrə peşəkarlığı artırmaqla yanaşı, xarici dilləri də yüksək səviyyədə öyrənirlər. Dövlətimiz gələcəkdə bu sahədə kadrlara böyük ehtiyac olacağını nəzərə alaraq orta məktəblərdə şagirdlərə ilkin biliklərin öyrədilməsi üçün xüsusi kabinələrin açılmasını diqqətdə saxlayıb. Dövlət başçısı həmin müşavirədə tədris proqramına da müəyyən dəyişikliklər edilməsini təhsilin qarşısında məqsəd qoyub.

***“Hesab edirəm ki, bugünkü müşavirə və bu məsələnin Prezidentin nəzarəti altında olması bizim bir çox tərəfdaşlarımıza da ciddi mesaj olacaq ki, Azərbaycan bu sahəni özü üçün prioritet sayır. Bizdə olan imkanlar nədən ibarətdir? Mənim sadaladığım üstünlüklər xarici tərəfdaşlarımıza da çatdırılmalıdır. Sadalamadığım üstünlüklər indi siz tərəfdən də çatdırılmalıdır ki, biz bu sahəyə güclü təkan verək”.*** Prezident İlham Əliyevin bu fikirlərindən yola çıxaraq deyə bilərik ki, “Azərbaycanın yeni rəqəmsal arxitekturası” adlı vahid fəaliyyət planına həsr edilən müşavirədə qarşıya qoyulan öhdəliklər Azərbaycanın süni intellekt sahəsində strateji baxışının formalaşdırılması və sistemli yanaşmanın təmin edilməsi ölkənin rəqəmsal gələcəyinin möhkəmlənməsi istiqamətində görülən işlərin daha da sürətləndirilməsində mühüm rol oynayacaq.

Ramiyə ƏKBƏROVA

# Naxçıvan Muxtar Respublikasının Baş naziri kollektivə təqdim edilib









Fevralın 9-da Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Cabbar Musayev Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin olunub.

Təqdimat mərasimindən əvvəl Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və Baş nazir Cabbar Musayev Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucaldılan abidəsini ziyarət edərək abidə önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Daha sonra Ceyhun Cəlilov Prezidentin təqdimatına uyğun olaraq Cabbar Musayevi Nazirlər Kabinetinin kollektivinə təqdim edib.

Baş nazir Cabbar Musayev çıxışında göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını vurğulayıb. Baş nazir ölkə başçısının müəyyən etdiyi strateji xəttə uyğun verilmiş tapşırıq və göstərişlərin vaxtında icra edilməsini, müəyyən edilmiş məsuliyyəti dürüstlük, şəffaflıq və peşəkarlıqla yerinə yetirəcəyini bildirib.

Səlahiyyətli nümayəndə Ceyhun Cəlilov çıxış edərək Prezident cənab İlham Əliyevin tapşırıqlarını diqqətə çatdırıb. O bildirib ki, Nazirlər Kabinetinin əsas vəzifəsi sosial-iqtisadi proqramların vaxtında və keyfiyyətlə icra edilməsidir. Atılan bütün addımların mərkəzində vətəndaş məmnunluğu və sosial ədalət prinsipləri dayanmalıdır. Məşğulluğun artırılması, sahibkarlığın inkişafı, aqrar sahənin gücləndirilməsi, turizm potensialının genişləndirilməsi, ekoloji tarazlığın qorunması və yol infrastrukturunun möhkəmləndirilməsi və s. sahələrin yüksələn xətlə inkişafı davam etdirilməlidir.

Ceyhun Cəlilov diqqətə çatdırıb ki, Prezident cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir. Səlahiyyətli nümayəndə muxtar respublikanın müasir inkişaf yol xəritəsi sayılan Dövlət Proqramının 2026-2027-ci illər üzrə icrasının intensiv şəkildə davam etdirilməsinin vacibliyini vurğulayıb.

Sonda səlahiyyətli nümayəndə Cabbar Musayevi təbrik edərək Prezidentin muxtar respublikanın inkişafı ilə bağlı tapşırıqlarının vaxtında və layiqincə yerinə yetiriləcəyinə əminliyini ifadə edib.

# Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Avropa İttifaqının Azərbaycan Respublikasındakı səfiri Mariyana Kuyundziçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb







Görüş zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanla Avropa İttifaqı arasında strateji tərəfdaşlıq, dostluq və etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb. Bildirilib ki, Avropa İttifaqına üzv dövlətlərin Azərbaycanla uzunmüddətli və faydalı əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır.

Söhbət zamanı Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyi çərçivəsində əldə olunan razılaşmalardan məmnunluq ifadə olunub. Naxçıvan Muxtar Respublikasının Orta Dəhliz üzrə kommunikasiyaların qurulmasında mühüm strateji bölgə kimi önəminə diqqət çəkilib. Həmçinin Naxçıvanın iqtisadi potensialı, həmçinin bərpa olunan enerji imkanları, sahibkarlara tətbiq edilən 10 illik vergi güzəştlərinin əhəmiyyəti və regionun gələcəkdə azad iqtisadi zonaya çevriləcəyi istiqamətində həyata keçirilən tədbirlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfir Mariyana Kuyundziç ilk biznes səfərinə Naxçıvan Muxtar Respublikasından başlamasının əhəmiyyətini vurğulayıb. Qarşıdakı illərdə Avropa İttifaqı tərəfindən həyata keçiriləcək layihələrin iqtisadi aspektləri müzakirə edilib. Eləcə də sabah baş tutacaq “Merlər Razılaşması-Şərq” layihəsinin təqdimat konfransının əhəmiyyətinə toxunulub.

# Ali Məclisin 2026-cı il yaz sessiyasının növbəti iclası keçirilib







Fevralın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası keçirilib.

Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikasının yaranmasının 102-ci ildönümü münasibətilə muxtar respublika əhalisini və ictimaiyyətini təbrik edib, muxtar respublikanın inkişafı üçün fəaliyyət göstərən hər kəsə uğurlar arzulayıb.

Sonra Ali Məclis sədrinin birinci müavini qeyd edib ki, bugünkü iclasın gündəliyində 2 məsələ nəzərdə tutulsa da, əlavə olaraq Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin təqdimatına baxılması məsələsi də gündəliyə daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən Ali Məclisin sədri Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Ali Məclisə təqdim edir.

Təqdimat oxunub, namizəd haqqında məlumat verildikdən sonra “C.H.Musayevin Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək etimad göstərərək onu Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təqdim etdiyinə görə minnətdarlığını bildirən Cabbar Musayev çıxış edərək deyib ki, bu gün Azərbaycan tarixi Zəfərin yaratdığı yeni reallıqlar fonunda sürətlə inkişaf edir. Dövlət başçısının Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi xətti müasir dövrün çağırışlarına uyğun şəkildə uğurla davam etdirməsi Azərbaycanın dayanıqlı inkişafını təmin edən əsas amillərdəndir.

Cabbar Musayev qarşıda duran vəzifələrin uğurla icra edilməsi, dövlət başçısının müəyyən etdiyi strateji hədəflərin layiqincə həyata keçirilməsi üçün bundan sonra da səylə çalışacağını bildirib.

Bəxtiyar Məmmədov Ali Məclis adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək etimadı ilə yeni vəzifəyə təyin olunması münasibətilə Cabbar Musayevi təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

İclasda gündəlikdə duran ikinci məsələ – “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsi ilə bağlı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonuncu məsələnin – “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsi ilə əlaqədar Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun səsə qoyularaq qəbul edilib.

Bununla da Ali Məclisin növbəti iclası başa çatıb.

# Ali Məclisin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib



Fevralın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinə “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” və “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin müzakirəsinin daxil edildiyini bildirib.

İclasda qanun layihələri haqqında Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Rahib Kərimov məlumat verib.

Gündəlikdə duran məsələlərlə bağlı müzakirələr aparıldıqdan sonra qanun layihələrinin Ali Məclisin plenar iclasına təqdim olunması tövsiyə edilib.

# Naxçıvanda bir sıra normativ-hüquqi aktların ləğvi və dəyişikliyi ilə bağlı Fərman imzalanıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavininin imzaladığı 12 fevral 2026-cı il tarixli Fərmana əsasən müxtəlif illərdə imzalanmış və ayrı-ayrı sahələri əhatə edən bir sıra normativ-hüquqi aktlarda dəyişiklik edilib, bəziləri isə ləğv olunub.

Bu, Naxçıvan Muxtar Respublikasında aparılan institusional və hüquqi islahatlar çərçivəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi, təkrarlanan və aktuallığını itirmiş hüquqi aktların sistemləşdirilməsi məqsədi daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi internet saytında “Fərmanlar” altbölməsinə daxil olaraq müvafiq Fərmanla tanış ola bilərsiniz.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ordubadın ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilməsi tarixi irsimizə verilən yüksək dəyərdir

## Qədim Ordubad şəhəri ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilib



Fevralın 9-13-də Özbəkistanın paytaxtı Daşkənddə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) İslam Dünyası İrs Komitəsinin 13-cü sessiyası keçirilir.

Mədəniyyət Nazirliyindən bildirilib ki, sessiya çərçivəsində fevralın 11-də Ordubad Tarix-Memarlıq Qoruğunun ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilməsi barədə qərar qəbul olunub.

Qeyd edək ki, 1977-ci ildən tarix-memarlıq qoruğu elan edilmiş Ordubad şəhəri 24 oktyabr 2001-ci ildə UNESCO-nun Ümumdünya İrsinin İlkin Siyahısına daxil edilmişdir.

Ordubad şəhərinin ərazisində yerləşən abidələrin daha yaxşı qorunması, təbliği və idarə olunmasının təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 2024-cü il fevralın 21-də "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb.

Ordubad şəhəri qədim tarixə malikdir. Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubadın adına ilk dəfə V əsrin yazılı mənbələrində rast gəlinir. XVII əsrin əvvəllərində Ordubadda Cümə məscidi, mədrəsə, buzxana, Qeysəriyyə, hamam və karvansaralar tikilmiş, Anbaras, Kürdatal, Üçtürləngi, Mingis və Sərşəhər məhəllələri, Ərasət meydanı ansamblı, üç meydan ətrafında örtülü bazar kompleksi salınmışdır. Ordubadın əsas su təchizatı olan kəhriz sistemi də bu dövrdə yaradılmışdır. Şəhərin küçə şəbəkəsi Cümə məscidinin yerləşdiyi mərkəzi meydandan şüa şəklində şaxələnərək müxtəlif məhəllələrin əsasını təşkil edir. XVII-XVIII əsrlərdə inşa edilmiş Cümə, Anbaras, Sərşəhər, Dilbər və Təkeşiyi məscidləri öz tarixi və mədəni əhəmiyyətini bu gün də saxlayır.

Ordubadın ICESCO-nun İlkin Siyahısına daxil edilməsi, həmçinin 2026-cı ildə ölkəmizdə elan edilmiş "Şəhərsalma və Memarlıq İli"nə mühüm töhfədir.

Növbəti mərhələdə Mədəniyyət Nazirliyi tərəfindən nominasiyanın ICESCO-nun Əsas Siyahısına daxil edilməsi istiqamətində işlər aparılacaq.



Qədim Ordubad şəhəri İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESCO tərəfindən İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilib. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təqdim edilən nominasiya əsasında fevralın 11-də "Ordubad" Tarix-Memarlıq Qoruğunun ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına salınması barədə rəsmi qərar verilib. Bu qərar, şübhəsiz ki, Ordubadın İslam dünyası kontekstindəki tarix-memarlıq və mədəni əhəmiyyəti ilə bağlıdır. Şəhərin orta əsrlərdən qalma strukturu İslam dövrü memarlıq nümunələri ilə, məscidlər, hamamlar, karvansaralar, bazar meydanları, yaşayış evləri və ticarət yolları üzərindəki mövqeyi ilə İslam mədəni irsinin tipik və dəyərli nümunəsi kimi qiymətləndirilib. Ordubad 1977-ci ildən Azərbaycan hökuməti tərəfindən tarix-memarlıq qoruğu statusu daşıyır ki, bu da onun dövlət səviyyəsində qorunduğunu və ICESCO-nun irs qorunması meyarlarına uyğun olduğunu açıq şəkildə təsdiqləyir. Şəhərin tarixinə gəldikdə isə bu qədim şəhər adının mənşəyini "ordu" (ordu, hərbi düşərgə) və "bad" (şəhər, məskən) sözlərindən alır, mənaca isə "qədim şəhər" və ya "ordu şəhəri" mənasını verir. Bu onun qədimdən hərbi və ticarət mərkəzi kimi mövcudluğunu göstərir. Şəhər Araz çayı vadisində, Böyük İpək Yolunun vacib qollarından birində yerləşdiyi üçün Antik dövrdən (I əsrdən) başlayaraq ticarət və təsərrüfat mərkəzi kimi tanınıb. VII əsrdən etibarən İslam dininin regiona yayılması ilə şəhər İslam mədəniyyətinin inteqrasiya mərkəzlərindən birinə çevrilib.



İslam memarlığı və mədəniyyəti baxımından Ordubad zəngin abidələri ilə seçilir. XVII əsrə aid Anbaras, Cümə, Dilbər, Mingis, XVIII əsr abidəsi Sərşəhər, Təkeşiyi kimi məscidlər, XVII-XIX əsrlərə aid Ordubad hamamı, karvansaralar və yaşayış kompleksləri. Bu abidələr orta əsr İslam memarlığının tipik nümunələridir və regionda dini harmoniya, tolerantlıq simvolu kimi qiymətləndirilir. Şəhər Səfəvi dövründə, xüsusilə də I Şah Abbas zamanında vergi imtiyazları alıb və ticarət mərkəzi kimi daha da çiçəklənib. Baramaçılıq sahəsində gördüyü işlər, ərik və üzümləri ilə zəngin meyvə bağları bu şəhərin hərtərəfli zənginliyindən xəbər verir. Tarixi qaynaqlarda qeyd olunur ki, vaxtilə Ordubadda 40 növ üzüm növü yetişdirilirdi. İstehsal olunan ipək və kənd təsərrüfatı məhsulları XVI əsrin ikinci yarısından başlayaraq Ordubaddan Venesiyaya, Marsel, Amsterdam və sair kimi Avropa şəhərlərinə ixrac olunurdu. XX əsrin əvvəllərində keçirilmiş beynəlxalq sərgi və baxışlarda Ordubad ipəyi 13 dəfə qızıl medalla təltif edilmişdir. Ordubadın 5 tarixi məhəlləsi sayılan Anbaras, Kürdatal, Mingis, Sərşəhər, Üçtürləngi məhəllələri orta əsr şəhərsalma ənənələrini hələ də qoruyub saxlayır və bu strukturu İslam dünyasının şəhər mədəniyyətinin klassik nümunəsi edir. Ordubad, sadəcə, qədim şəhər deyil, həm də İslam mədəniyyətinin yayıldığı, ticarət və tolerantlıq mərkəzi kimi inkişaf etdiyi yerdir. Bu gün də onun dar küçələri, qədim abidələri və mədəni irsi regionun zəngin tarixini canlı şəkildə əks etdirir.

✍ **Rafiq TƏHMƏZ**



Şəhərin ilk işıqları dağların ətəyini qızıl rəngə boyayarkən qədim diyar Ordubad yavaş-yavaş oyanır. Uzaq qayaların sükutu, dərələrdən axıb gələn sərin meh və səhərin yüngül dumanı şəhərə mistik bir hava verir. Burada hər daş, hər taxta qapı və hər dar küçə öz hekayəsini danışır. Qırmızı bişmiş kərpiclərlə hörülmüş divar naxışları, taxta qapılardakı incə oyma detalları və adət-ənənələrdən xəbər verən "taqqılbab" və "zəncirbab"lar əzəli yurdun zəngin mədəniyyətini göz önünə gətirir. Günəşin işığı rəngli, şəbəkəli pəncərələrdən içəri süzülərkən otaqlar sehrli bir işıqla dolur və hər addım insanı əsrlər əvvəlki həyatın ritminə aparır. Dar küçələrdə gəzərkən qədim məscidlərin və hündür evlərin əzəməti hiss olunur, daş divarların səssiz nəğmələri isə əcdadların gündəlik həyatını ruhumuza çatdırır.

Ordubad yalnız bir şəhər deyil, o, tarix, sənət və həyatın bir-birinə qarışdığı bir mədəniyyət məkanıdır. Hər küçə, hər meydan və hər tarixi abidə insanı sanki keçmişin sehrinə çəkir və ona öz köklərini, estetik gözəlliyini göstərir.

Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad, tarixin və mədəniyyətin əbədiyyətini özündə əks etdirir. Onun hər guşəsi, hər meydanı və hər dar küçəsi əsrlərin izlərini saxlayır. Bu qədim diyar yalnız Naxçıvanın deyil, bütün Azərbaycanın mədəniyyət xəzinələrindən biridir. Hər daşda bir hekayə, hər ağacda bir xatirə vardır; hər addımda isə insanı zamanın sehrli ritmi qarşılayır.

Şəhərin küçələri və meydanları əsrlərboyu olduğu kimi qorunub saxlanmışdır. Burada yerüstü və yeraltı memarlıq mirasları, buzxanalar, kəhrizlər və qədim hamamlar həm tarixi, həm də mədəni zənginliyi əks etdirir. Hər daş-divar və hər ulu çinar ağacı öz hekayəsini danışır. Qocaman çinarların kölgəsi altında tarixin nəfəsi hiss olunur, kəhrizlərdən gələn su isə əsrlərin saflığını və təmizliyini xatırladır. Bu diyar insanı sanki keçmişin sehrinə çəkir və ona köklərini, mədəni zənginliyini göstərir. Hər məhəllə, hər dar küçə və hər meydan tarixlə doludur. Buradakı hava isə keçmişin səssiz danışığı ilə doyur.

Qədim diyar Ordubadın memarlıq abidələri özünəməxsus üslubu ilə seçilir. Evlərin fasadları, incə oyma detallar və rəngarəng pəncərələr şəhərin zəngin estetik ənənəsini özündə yaşadır, hər daş, hər detal tarixin nəfəsini hiss etdirir. Orta əsr şəhərlərinin su təchizatı sistemi də diqqət çəkir. Yüzdən çox kəhriz və çeşmə şəhərin həm yaşayışını, həm də kənd təsərrüfatını təmin edirdi. Bu sistem düşmən mühasirəsi zamanı strateji əhəmiyyət kəsb edirdi və indiyə qədər bir neçə qədim kəhriz işlək vəziyyətdədir. Su kanalları şəhərin hər guşəsinə həyat verir, kəhrizlərdən axan təmiz su isə insan ruhunu təzələyir.

Ordubadın tarixi yalnız memarlıqla ölçülmür. Şəhər Səfəvi dönəmində diqqətdə olmuş və I Şah Abbas əhalini xüsusi fərmanla vergi azadlığı ilə mükafatlandırmışdır. XVII və XVIII əsrlərdə inşa edilmiş Cümə, Anbaras, Sərşəhər, Dilbər və Təkeşiyi məscidləri, Qeysəriyyə, mədrəsə və karvansaralar bu dövrün şəhərsalma və mədəni ənənələrini gözəl şəkildə əks etdirir. Mərkəzi meydandan yayılan məhəllələr sistemi şəhərin planlaşdırılmasının zərifliyini və ictimai həyatın nizamını ortaya qoyur. Hər məhəllənin öz tarixi adı və hekayəsi qorunub saxlanılıb, hər küçə insanı sanki bir başqa dövrün nəfəsi ilə qarşı-qarşıya qoyur.

Bu tarixi məskən həm də sənətkarlar şəhəridir. Misgərlik, dulusçuluq, dəmirçilik və nəqqaşlıq kimi qədim sənət ənənələri burada illərdir, yaşadılır. Qədim evlərin divarlarında nənələrin laylası, babaların öyüd-nəsihəti hələ də eşidilir. Məişət əşyaları, gündəlik istifadə olunan qab-qacaq və digər əl işləri şəhərin zəngin mədəniyyətini bu günə daşıyır.

Qədim diyar Ordubad həm də beynəlxalq səviyyədə mədəni irs kimi tanınması ilə diqqət çəkir. 2024-cü il fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında Sərəncam imzalanıb. Bu da qoruq şəhərin qədim memarlıq abidələrini, arxeoloji və etnoqrafik materiallarını qorumağa töhfə verir. Burada Cümə məscidi, Sərşəhər və digər tarixi məscidlər, Qeysəriyyə kompleksi, buzxana, mədrəsə, kəhrizlər və yaşayış evləri qorunur və bərpa olunur.

2026-cı il fevralın 11-də Özbəkistanın Daşkənd şəhərində keçirilən ICESCO İslam Dünyası İrs Komitəsinin 13-cü sessiyasında bu qədim diyar İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilib. Bu hadisə şəhərin mədəni və tarixi əhəmiyyətinin beynəlxalq səviyyədə tanınmasının növbəti mərhələsidir. Qərar yalnız şəhərin qorunması və təbliği baxımından deyil, həm də gələcək nəsillərə zəngin mədəni irsin ötürülməsi üçün böyük əhəmiyyət daşıyır. Növbəti mərhələdə nominasiyanın ICESCO-nun Əsas Siyahısına daxil edilməsi üçün müvafiq işlər aparılacaq.

Ordubadın ICESCO-nun İlkin Siyahısına daxil edilməsi, həmçinin 2026-cı ildə ölkəmizdə elan edilmiş "Şəhərsalma və Memarlıq İli"nə mühüm töhfədir. Bu hadisələr şəhərin həm milli, həm də beynəlxalq mədəni irs baxımından əhəmiyyətini daha da yüksəldir və onun qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi prosesinə xüsusi dəyər qatır.

**Aidə İBRAHİMOVA**
***NDU-nun nəzdindəki Beynəlxalq Kembric Məktəbinin İctimaiyyətlə əlaqələr üzrə mütəxəssisi***




**Vüqar RƏHİMZADƏ**
*Milli Məclisin deputatı*

"Azərbaycanın zəngin tarixi-mədəni irsinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində növbəti mühüm addım atılıb. Özbəkistanın Daşkənd şəhərində keçirilən İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) İslam Dünyası İrs Komitəsinin 13-cü sessiyası çərçivəsində qədim Ordubad şəhərinin təşkilatın İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilməsi ölkəmizin qədim mədəniyyətinə verilən yüksək dəyərin növbəti təzahürüdür. Növbəti mərhələdə nominasiyanın ICESCO-nun Əsas Siyahısına daxil edilməsi istiqamətində Mədəniyyət Nazirliyi tərəfindən müvafiq işlər aparılacaq".

Bu sözləri Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Şərq qapısı" qəzetinə açıqlamasında deyib.

Deputat bildirib ki, Ordubad şəhəri əsrlərboyu formalaşmış şəhərsalma ənənələri, unikal memarlıq üslubu və zəngin tarixi abidələri ilə seçilir. Daşdan inşa olunmuş evlər, məscidlər, hamamlar və körpülər şəhərin qədimliyini və özünəməxsusluğunu bu gün də qoruyub saxlayır. Onun sözlərinə görə, ICESCO-nun İlkin Siyahısına daxil edilmə Ordubadın İslam dünyasının zəngin mədəni irsinin ayrılmaz hissəsi kimi tanınması deməkdir.

Vüqar Rəhimzadə vurğulayıb ki, bu qərar şəhərin beynəlxalq səviyyədə təbliği, qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda bu status turizm potensialının artmasına, bölgənin sosial-iqtisadi inkişafına da müsbət təsir göstərəcək.

Deputat qeyd edib ki, Azərbaycan dövləti mədəni irsin qorunmasını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib. Prezident İlham Əliyevin 2024-cü il 21 fevral tarixli müvafiq Sərəncamı ilə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması bu sahədə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin bariz nümunəsidir. Tarixi abidələrin bərpası, qədim şəhər mühitinin qorunması və beynəlxalq təşkilatlarla əməkdaşlıq bu istiqamətdə görülən işlərin sistemli xarakter daşıdığını göstərir.

Sonda Vüqar Rəhimzadə bildirib ki, qədim Ordubadın ICESCO tərəfindən tanınması yalnız bir şəhərə deyil, bütövlükdə, Azərbaycanın zəngin mədəni irsinə beynəlxalq miqyasda verilən yüksək dəyərin göstəricisidir. Bu hadisə milli irsimizin qorunması və dünyada tanıdılması istiqamətində mühüm mərhələ olmaqla yanaşı, gələcək nəsillər üçün də mühüm çağırışdır.



# Naxçıvanın yol xəritəsi

## sosial ədalət və dayanıqlı inkişaf

Azərbaycan Vətən müharibəsində qazandığı tarixi zəfərlə regionda yaratdığı reallıqlar fonunda özünün yeni inkişaf xəttini inşa etməkdədir. Bu inkişaf xəttində Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi tərəqqisi də dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin müəyyən etdiyi strateji hədəflər Naxçıvan üçün də aydın inkişaf konturlarını formalaşdırır. Bu hədəflərin mərkəzində isə bir başlıca prinsip dayanır: vətəndaş məmnunluğu və sosial ədalət. Bu da təsadüfi deyil. Çünki hər bir proqramın, hər bir layihənin real dəyəri, icrasının praktik nəticəsi insanın gündəlik həyatında yaratdığı müsbət dəyişikliklərlə ölçülür. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, dövlət siyasətinin başlıca prioriteti məhz Azərbaycan vətəndaşıdır: *“Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rifah halı, təhlükəsizliyi, yaşayışı dayanır. Hər bir dövlət və hər bir rəhbər məhz bu prinsiplə yaşamalıdır. Xalqa xidmət etmək, xalqın qayğıları ilə yaşamaq, xalqı narahat edən problemləri daim diqqət mərkəzində saxlamaq və onları həll etməsi lazımdır”.*

### Sosial-iqtisadi inkişafa dair Dövlət Proqramı Naxçıvanın gələcək inkişaf trayektoriyasını müəyyən edir

Bu gün Naxçıvanda həyata keçirilən islahatların məqsədi də məhz dövlət başçısının qarşıya qoyduğu vəzifələrin uğurlu icrasına nail olmaqla tam şəkildə vətəndaş məmnunluğu yaratmaq və cəmiyyətdə sosial ədalətin davamlılığını təmin etməkdir. Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiqlənən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” bu baxımdan 11 prioriteti özündə cəmləşdirən vahid konsepsiya ortaya qoyur. Ölkə başçısının ***“Naxçıvanla bağlı böyük planlarımız var”*** ideyasını özündə ehtiva edən bu Dövlət Proqramı, eyni zamanda Naxçıvanın gələcək inkişaf trayektoriyasını da müəyyən edir. Proqramın 2026-2027-ci illər üzrə icra mərhələsinin intensivləşdirilməsi qarşıya qoyulan məqsədlərin vaxtında və keyfiyyətlə reallaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu mərhələ Naxçıvanda həyata keçirilən sosial-iqtisadi islahatların real nəticələrini daha aydın şəkildə görməyə imkan verəcək.

Dövlət Proqramının vaxtında və keyfiyyətlə icra edilməsi, atılan bütün addımların mərkəzində vətəndaş məmnunluğu və sosial ədalət prinsiplərinin dayanması əsas vəzifələrdəndir. Bu xüsusda əsas diqqət əhali məşğulluğunun artırılmasına, sahibkarlığın inkişafına, aqrar sektorun gücləndirilməsinə, turizm potensialının genişləndirilməsinə, ekoloji tarazlığın qorunmasına və yol infrastrukturunun möhkəmləndirilməsinə, eləcə də digər sahələrin inkişafına yönəlib. Sözügedən istiqamətlərin hər biri təkcə iqtisadi göstəricilərin artımına deyil, eyni zamanda sosial rifahın yüksəlməsinə hesablanıb. Xüsusilə məşğulluq və sahibkarlığın inkişafı əhali gəlirlərinin artımı, iş imkanlarının genişlənməsi baxımından mühüm rol oynayır.

### Naxçıvanın inkişaf modeli insan amilinə söykənir

Vurğulamaq yerinə düşər ki, Dövlət Proqramının icrasını təmin edən, xüsusilə kiçik və orta sahibkarlığın genişlənməsinə, xidmət sektorunun canlanmasına, iş imkanlarının artırılmasına təkan verəcək mütərəqqi addımlardan biri də ötən il dekabrın 29-da Prezident İlham Əliyevin Milli Məclisin qəbul etdiyi Vergi Məcəlləsinə və “Gömrük tarifi haqqında”, “Sosial sığorta haqqında” qanunlara dəyişiklikləri təsdiqləməsi oldu. Vergi Məcəlləsi və “Gömrük tarifi haqqında” qanuna dəyişikliklə Naxçıvan Muxtar Respublikasının rezidentləri 2026-cı ilin yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən və gömrük rüsumlarından azad edildilər.

Prezident İlham Əliyevin qəbul etdiyi bu qərarlar Naxçıvanda azad sahibkarlıq mühitinin formalaşdırılması, biznesin inkişafı istiqamətində yeni dönəmin başlandığını göstərir. Dövlət Proqramının icrası, eyni zamanda Zəngəzur dəhlizi və AİZ-in reallaşdırılması fonunda tətbiq olunan vergi, sosial və gömrük güzəştləri muxtar respublika iqtisadiyyatına yerli sərmayələrin, investisiyaların cəlbinə şərait yaradacaq ki, bu sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı və paralelində də yeni iş yerlərinin yaradılmasına, əhali məşğulluğunun artırılmasına geniş imkanlar açacaq. Bütün bu proseslərin reallaşması Naxçıvanda inkişaf coğrafiyasını xeyli genişləndirəcək, həm sənaye, həm də kənd təsərrüfatı dirçəldiləcək, ticarət, logistika ilə yanaşı, turizm sektorunda da böyük canlanma yaranacaq. Atılan mütərəqqi addımlar sayəsində aqrar sahənin gücləndirilməsi ərzaq təhlükəsizliyinə töhfə verməklə yanaşı, kənd yerlərində sosial-iqtisadi canlanmanı təmin edəcək. Turizm potensialının genişləndirilməsi Naxçıvanın zəngin təbiətinin və tarixi-mədəni irsinin iqtisadi dövriyyəyə cəlb olunmasına imkan yaradacaq. Ekoloji tarazlığın qorunması və yol infrastrukturunun möhkəmləndirilməsi isə regionun uzunmüddətli və dayanıqlı inkişafını şərtləndirəcək. Bütün bu inkişaf prosesləri, heç şübhəsiz, cəmiyyət həyatında müsbət dəyişikliklərə yol açacaq, sosial ədalət və vətəndaş məmnunluğu prinsipləri öz mövqeyini möhkəmləndirəcək.

Təqdirəlayiq haldır ki, bu gün Naxçıvanın inkişaf modeli təkcə rəqəmlərə deyil, insan amilinə, insanların sosial vəziyyətinin yaxşılaşdırılması prinsipinə söykənir. Dövlətin həyata keçirdiyi siyasətin mərkəzində vətəndaşın rifahı dayanırsa, deməli, bu yol dayanıqlı, bu inkişaf isə uzunömürlü olacaq. Əminliklə demək olar ki, Azərbaycanın hazırkı sülh, əməkdaşlıq diplomatiyası fonunda Prezident İlham Əliyevin muxtar respublikanın inkişafı naminə qarşıya qoyduğu vəzifələrin icrası və bölgədəki yeni reallıqlar Naxçıvanın hərtərəfli, dayanıqlı tərəqqisinə yol açmaqla region əhalisinin yüksək həyat şərtlərinə uyğun firavan yaşayışına xidmət edəcək.



Nail ƏSGƏROV



# “Azərbaycan mədəniyyəti – 2040” konsepsiyasında dil və milli kimlik məsələsi

*Müasir dövrdə qloballaşma prosesləri milli dövlətlərin mədəni və mənəvi dayaqları qarşısında yeni çağırışlar formalaşdırır. İnformasiya axınlarının sürətlənməsi, transmillləşmə və rəqəmsal kommunikasiya imkanlarının genişlənməsi milli dillərin və milli kimliklərin qorunması məsələsini strateji səviyyəyə yüksəldir. Bu baxımdan mədəniyyət və dil siyasəti artıq yalnız humanitar sahə deyil, eyni zamanda ideoloji təhlükəsizlik və milli davamlılıq məsələsi kimi çıxış edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mədəniyyət siyasəti bu reallıqları nəzərə alan, milli-mənəvi dəyərlərin qorunmasını dövlətin uzunmüddətli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi kimi müəyyənləşdirən konseptual yanaşmaya əsaslanır. “Azərbaycan mədəniyyəti – 2040” konsepsiyası məhz bu baxışın ifadəsi olaraq milli kimliyin əsas sütunlarından biri olan dil məsələsini xüsusilə ön plana çıxarır.*



## Prezident İlham Əliyevin dövlətçilik baxışında mədəniyyət və milli kimlik

Prezident cənab İlham Əliyev 2025-ci il ərzindəki müsahibələrində və 2026-cı ilin yanvar ayında ötən ilin dəyərləndirməsinə əsasən verdiyi geniş müsahibədə, eləcə də təsdiq etdiyi “Azərbaycan mədəniyyəti – 2040” konsepsiyasında kimlik məsələsi ilə bağlı dövlətin mövqeyini ictimaiyyətin nəzərinə çatdırdı. Qeyd etmək lazımdır ki, müasir dövrdə arxasında dövlət təşkilatlanması olmayan bir millətin varlığından bəhs etmək çox da mümkün deyil. Prezidentin lazımi məqamda milli kimliklə bağlı açıqlamalarına bu çərçivədən baxmaq lazımdır. Xatırlatmaq yerinə düşər ki, Ümummilli Lider Heydər Əliyevin də milli kimliklə bağlı açıqlamaları, xüsusilə ana dili ilə bağlı cəsur və qərarlı mövqeyi ölkədə ana dilinə dair təqdirəlayiq addımların atılmasına xidmət etmişdir. Daha doğrusu, sovet dövründə rus dili tərəfindən sıxışdırılan Azərbaycan dilinin və ana dilində oxuyub yazanların sosial status qazanmalarını asanlaşdırmışdır.

Tarixi qaliblər yazır. Belə olan halda Azərbaycan milli kimliyinin varlığı üçün zəfər, ərazi bütövlüyünün təmini zəruri şərt olaraq siyasət institutunun gündəliyində birinci sırada durmaqda idi. Cənab İlham Əliyevin kimliklə bağlı fikirlərinin əsas məğzi 2025-ci ildə Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsindən gətirilən sitatda aydın şəkildə ifadə olunmuşdur: ***“Bizim üçün, ilk növbədə, milli, etnik kimlik gəlir. İkincisi, vətəndaşlıqdır. Yaxud ola bilər ki, vətəndaşlıq birinci, etnik kimliklə yanaşıdır. Azərbaycanlıların mütləq əksəriyyəti üçün məzhəb məsələsinin, ümumiyyətlə, yeri yoxdur, heç 100-cü yerdə də deyil. Azərbaycanlılar etnik qrup kimi İslamın müxtəlif qollarından olan nümayəndələrdən ibarətdir. Lakin biz hamımız etnikliyimizlə, dilimizlə və dövlətimizlə birləşmişik. Təkcə müsəlmanlar deyil, Azərbaycanda digər dinlərin nümayəndələri də özlərini eyni cür hiss edirlər. Müstəqillik dövründə bu sahədə gördüyümüz işlər həmin müsbət tendensiyaları gücləndirməkdən ibarət olub. Azərbaycan şiə və sünni müsəlmanların eyni vaxtda, eyni məsciddə ibadət etdikləri az sayda ölkələrdən biridir. Biz fərq qoymuruq. Biz düşünürük ki, müsəlman dünyası üçün ən böyük təhlükə məzhəblərə ayrılmaqdır”.***

Ümumiyyətlə, Prezident İlham Əliyevin siyasi fəaliyyətində mədəniyyət amili milli dövlətçilik ideologiyasının mühüm komponenti kimi təqdim olunur. Onun çıxış və nitqlərində Azərbaycan mədəniyyəti xalqın tarixi yaddaşını, milli şüurunu və mənəvi bütövlüyünü qoruyan əsas vasitə kimi xarakterizə edilir. Bu kontekstdə milli kimliyin formalaşmasında dilin rolu xüsusi vurğulanır.

Cənab Prezident dəfələrlə qeyd etmişdir ki, Azərbaycan dili milli varlığımızın əsas göstəricisidir və onun qorunması dövlətin prioritet vəzifələrindən biridir. Bu yanaşma Azərbaycançılıq ideologiyasının mahiyyəti ilə səsləşir və milli kimliyin yalnız etnik deyil, mədəni-sivilizasion məzmun daşıdığını göstərir.

“Azərbaycan mədəniyyəti – 2040” konsepsiyası uzunmüddətli strateji sənəd kimi milli mədəni inkişafın əsas istiqamətlərini müəyyənləşdirir. Konsepsiyanın əsas məqsədi Azərbaycan mədəniyyətinin qlobal mədəni məkan daxilində rəqabətqabiliyyətli və davamlı inkişafını təmin etməklə yanaşı, milli özünəməxsusluğun qorunmasıdır. Bu sənəddə mədəniyyət yalnız keçmişin mirası kimi deyil, gələcəyə yönəlmiş canlı və dinamik proses kimi təqdim olunur. Konsepsiya milli irsin mühafizəsi ilə yanaşı, onun müasir texnologiyalar və innovativ yanaşmalar vasitəsilə inkişaf etdirilməsini nəzərdə tutur. Bu kontekstdə dil siyasəti mədəni strategiyanın əsas dayaqlarından biri kimi çıxış edir.

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:**

***“Bizim üçün, ilk növbədə, milli, etnik kimlik gəlir. İkincisi vətəndaşlıqdır. Yaxud ola bilər ki, vətəndaşlıq birinci, etnik kimliklə yanaşıdır. Azərbaycanlıların mütləq əksəriyyəti üçün məzhəb məsələsinin, ümumiyyətlə, yeri yoxdur, heç 100-cü yerdə də deyil. Azərbaycanlılar etnik qrup kimi İslamın müxtəlif qollarından olan nümayəndələrdən ibarətdir. Lakin biz hamımız etnikliyimizlə, dilimizlə və dövlətimizlə birləşmişik. Təkcə müsəlmanlar deyil, Azərbaycanda digər dinlərin nümayəndələri də özlərini eyni cür hiss edirlər. Müstəqillik dövründə bu sahədə gördüyümüz işlər həmin müsbət tendensiyaları gücləndirməkdən ibarət olub. Azərbaycan şiə və sünni müsəlmanların eyni vaxtda, eyni məsciddə ibadət etdikləri az sayda ölkələrdən biridir. Biz fərq qoymuruq. Biz düşünürük ki, müsəlman dünyası üçün ən böyük təhlükə məzhəblərə ayrılmaqdır”.***

## Dil milli kimliyin əsas göstəricisi kimi



**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü***

Dil milli kimliyin formalaşmasında və qorunmasında həlledici rol oynayan fundamental amildir. “Azərbaycan mədəniyyəti – 2040” konsepsiyasında Azərbaycan dili təkcə ünsiyyət vasitəsi deyil, milli-mənəvi dəyərlərin daşıyıcısı və tarixi yaddaşın qoruyucusu kimi qiymətləndirilir.

Konsepsiyada dilin aşağıdakı funksiyaları ön plana çəkilir:
- *milli kimliyin qorunması və möhkəmləndirilməsi;*
- *mədəni irsin nəsildən-nəslə ötürülməsi;*
- *gənc nəslin milli şüurunun formalaşdırılması;*
- *rəqəmsal və qlobal mühitdə dilin mövqeyinin gücləndirilməsi.*

Prezident İlham Əliyevin dil siyasəti ana dilinin saflığının qorunması, onun dövlət idarəçiliyində, təhsildə, mediada və elmi mühitdə aparıcı mövqeyinin təmin edilməsinə yönəlmişdir. Bu siyasət qloballaşma şəraitində dilin assimilyasiya təhlükəsindən qorunmasına xidmət edir.

## Qloballaşma şəraitində milli dil və mədəni təhlükəsizlik

Qloballaşma milli mədəniyyətlər üçün həm imkanlar, həm də risklər yaradır. Bir tərəfdən, milli mədəniyyətlərin beynəlxalq miqyasda tanıdılması üçün geniş platformalar açılır, digər tərəfdən isə milli dillərin funksional sahələrinin daralması təhlükəsi meydana çıxır.

“Azərbaycan mədəniyyəti – 2040” konsepsiyası bu ziddiyyətli prosesi balanslaşdırılmış şəkildə tənzimləməyi hədəfləyir. Konsepsiyada qloballaşmaya inteqrasiya milli kimlikdən imtina kimi deyil, milli dəyərləri qoruyaraq dünya mədəni məkanında iştirak modeli kimi təqdim olunur. Bu baxımdan, Azərbaycan dilinin müasir informasiya-kommunikasiya texnologiyalarında geniş tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

## Təhsil və media mühitində dil siyasəti

Dil siyasətinin effektivliyi onun təhsil və media mühitində tətbiqi ilə bilavasitə bağlıdır. Konsepsiyada təhsil sistemində ana dilinin yüksək səviyyədə tədrisi, elmi və publisistik diskursun Azərbaycan dili əsasında inkişaf etdirilməsi əsas prioritetlər sırasında göstərilir.

Media sahəsində isə dil mədəniyyətinin qorunması, normativ dil qaydalarına əməl olunması və milli leksik fondun zənginləşdirilməsi xüsusi vurğulanır. Bu istiqamətdə dövlətin tənzimləyici və istiqamətləndirici rolu ön plana çıxır.

Nəticə etibarilə, Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşdırılan “Azərbaycan mədəniyyəti – 2040” konsepsiyası dil və milli kimlik məsələsini strateji dövlət siyasəti səviyyəsinə qaldıran mühüm konseptual sənəddir. Bu konsepsiya Azərbaycan dilini milli varlığın əsas dayağı kimi qorumağı və onu müasir çağırışlara uyğun inkişaf etdirməyi hədəfləyir.

Dil siyasətinin mədəni təhlükəsizlik kontekstində təqdim olunması Azərbaycanın gələcək inkişaf modelində milli kimliyin qorunmasının prioritet olduğunu bir daha təsdiqləyir. “Azərbaycan mədəniyyəti – 2040” konsepsiyası bu baxımdan milli-mədəni inkişafın ideoloji xəritəsi kimi dəyərləndirilə bilər.



# Kembric, Bolonya, Leuven və Naxçıvan: universitetlərin şəhər inkişafında rolu

*Müasir dünyada şəhərlərin rəqabət qabiliyyəti artıq yalnız onların coğrafi mövqeyi, zəngin təbii resursları və ya ənənəvi sənaye potensialı ilə müəyyən edilmir. Qloballaşma, texnoloji inkişaf və bilik iqtisadiyyatına keçid şəhərlərin inkişaf meyarlarını köklü şəkildə dəyişmişdir. Bu gün şəhərlər arasında rəqabət daha çox bilik istehsalı, innovasiya imkanları, yüksəkixtisaslı insan kapitalının cəlbedilməsi və saxlanılması, eləcə də yaradıcı mühitin formalaşdırılması üzərində qurulur. Universitetlər müasir şəhərlərdə artıq təkcə təhsil verən qurumlar kimi deyil, bilik istehsal edən, innovasiya yaradan və bu innovasiyaların real iqtisadi və sosial dəyərə çevrilməsini təmin edən kompleks mərkəzlər kimi fəaliyyət göstərirlər. Onlar elmi-tədqiqat layihələri, startap təşəbbüsləri, texnologiya transferi mexanizmləri və beynəlxalq əməkdaşlıqlar vasitəsilə şəhərlərin iqtisadi strukturunu şaxələndirir, yeni iş yerlərinin yaranmasına şərait yaradır və yerli iqtisadiyyata dinamika qazandırır.*



**Əziz QASIMOV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Dövlət Universitetinin müəllimi*

Məhz bu səbəbdən dünyanın bir çox şəhərləri qlobal miqyasda, əsasən, universitetləri ilə tanınır. Kembric, Bolonya, Leuven kimi şəhərlər universitetlərinin elmi nüfuzu, tarixi ənənələri və beynəlxalq təsiri sayəsində təkcə təhsil mərkəzləri deyil, eyni zamanda bilik, mədəniyyət və innovasiya şəhərləri kimi qəbul olunur. Bu şəhərlərin təcrübəsi göstərir ki, güclü universitet şəhərin brend dəyərini artırır, onu beynəlxalq tələbələr, tədqiqatçılar və investorlar üçün cəlbedici edir və nəticə etibarilə, şəhərin qlobal rəqabət mühitində mövqeyini möhkəmləndirir.

### *Universitet-şəhər münasibətlərinin nəzəri çərçivəsi*

Dünya təcrübəsi göstərir ki, universitetlərin şəhər inkişafına təsiri, əsasən, üç əsas istiqamətdə özünü büruzə verir. Birinci istiqamət iqtisadi təsirdir. Universitetlər innovasiya ekosisteminin əsas dayağı kimi çıxış edərək startapların yaranmasına, yeni biznes modellərinin formalaşmasına və yüksək əlavə dəyər yaradan sahələrin inkişafına təkan verir.

İkinci istiqamət sosial təsirlərlə bağlıdır. Universitetlərin mövcudluğu şəhərlərdə ümumi təhsil səviyyəsinin yüksəlməsinə, mədəni müxtəlifliyin artmasına və sosial mobilliyin güclənməsinə şərait yaradır. Müxtəlif ölkələrdən və sosial təbəqələrdən olan tələbələrin və akademik heyətin bir araya gəlməsi tolerantlıq və innovativ düşüncə tərzinin formalaşmasına xidmət edir.

Üçüncü istiqamət isə məkan və şəhərsalma təsirləri ilə əlaqədardır. Universitetlərin yerləşdiyi şəhərlərdə nəqliyyat infrastrukturunun inkişafı, yaşayış məhəllələrinin yenilənməsi, ictimai məkanların yaradılması və şəhər planlaşdırmasının modernləşdirilməsi müşahidə olunur. Universitet kampusları çox vaxt şəhərin mədəni və sosial cazibə mərkəzinə çevrilir və ətraf ərazilərin inkişafını stimullaşdırır. Bu baxımdan, universitetlər şəhərsalma proseslərinin də mühüm iştirakçısına çevrilir. Məhz bu üç istiqamətin fərqli kombinasiyası aşağıda bəhs edəcəyimiz Kembric, Bolonya və Leuven kimi şəhər modellərini unikal edir.

### *Kembric: bilik iqtisadiyyatı və texnoloji klaster modeli*

Kembric şəhəri müasir dövrdə universitet əsaslı texnoloji inkişafın ən uğurlu və klassik nümunələrindən biri hesab olunur. Şəhərin qlobal miqyasda tanınması və nüfuz qazanması təsadüfi deyildir. Bu proses birbaşa olaraq universitetin yüksək səviyyəli elmi-tədqiqat potensialı, güclü akademik ənənələri və innovasiyanı təşviq edən institusional mədəniyyəti ilə bağlıdır. Universitetin əsrlərboyu formalaşmış elmi mühiti Kembrici yalnız təhsil mərkəzi deyil, eyni zamanda bilik istehsalı və tətbiqi baxımından aparıcı mərkəzlərdən birinə çevirib.

Kembric Universiteti ətrafında formalaşan elmi parklar, tədqiqat institutları və innovasiya mərkəzləri şəhərin iqtisadi strukturunun əsasını təşkil edir. Xüsusilə informasiya texnologiyaları, biotexnologiya, süni intellekt və mühəndislik sahələrində fəaliyyət göstərən çoxsaylı startap və yüksək texnologiya şirkətləri burada cəmləşmişdir. Bu mühit nəticəsində Kembric regionunda "bilik iqtisadiyyatı"na əsaslanan və yüksək əlavə dəyər yaradan texnoloji klaster formalaşmışdır.

Kembric modeli aydın şəkildə göstərir ki, müasir universitetlər yalnız bilik istehsalı ilə kifayətlənməməli, həmin biliklərin iqtisadi və sosial dəyərə çevrilməsi üçün institusional mexanizmlər də formalaşdırmalıdır.

### *Bolonya: tarixi universitet və mədəni şəhər modeli*

Bolonya universitet şəhəri anlayışının ən qədim, eyni zamanda ən simvolik nümunələrindən biri hesab olunur. Bolonya nümunəsində universitetin şəhər həyatındakı rolu, ilk növbədə, iqtisadi deyil, mədəni və intellektual xarakter daşıyır. Avropanın ən qədim universitetlərindən birinə ev sahibliyi edən bu şəhərdə akademik ənənələr yüzilliklər ərzində şəhərin sosial quruluşunu, mədəni həyatını və ictimai düşüncə tərzini formalaşdırmışdır.

Bolonyanın tarixi memarlığı, orta əsrlərdən qorunub saxlanmış şəhər planı və akademik məkanları universitetlə şəhər arasında sıx inteqrasiya olunduğunu açıq şəkildə nümayiş etdirir. Universitet binaları şəhərin mərkəzində yerləşir və şəhər mühiti ilə təbii şəkildə vəhdət təşkil edir. Bu məkan inteqrasiyası universitet həyatını şəhər sakinlərinin gündəlik yaşamının ayrılmaz hissəsinə çevirir. Nəticədə, Bolonya "yaşayan universitet şəhəri" obrazını qazanmışdır.

Bolonya nümunəsində universitet minilliklər boyu şəhərin sosial və mədəni həyatını formalaşdıran əsas aktorlardan biri olmuşdur. İncəsənət, ədəbiyyat, hüquq və fəlsəfə sahələrində formalaşan zəngin akademik mühit Bolonyanı Avropa intellektual tarixində xüsusi mövqeyə malik şəhərə çevirmişdir.

### *Leuven: tədqiqat, sənaye və regional inteqrasiya*

Leuven şəhəri universitetin regional innovasiya sisteminin mərkəzinə çevrildiyi ən uğurlu Avropa modellərindən biri kimi qiymətləndirilir. Bu şəhərdə universitet yalnız bilik istehsal edən akademik institut kimi deyil, regionun sosial-iqtisadi inkişafına istiqamət verən strateji aktor kimi çıxış edir. Leuven modeli universitet-tədqiqat-sənaye əlaqələrinin sistemli və institutlaşdırılmış formada qurulması ilə seçilir və bu baxımdan, Avropa miqyasında nümunəvi təcrübə hesab olunur.

Leuven şəhərində universitetin tədqiqat fəaliyyəti birbaşa olaraq sənaye və biznes strukturları ilə əlaqələndirilmişdir. Universitet daxilində yaradılmış texnologiya transfer ofisləri, innovasiya mərkəzləri və spin-off mexanizmləri elmi nəticələrin bazar məhsullarına və xidmətlərə çevrilməsini sistemli şəkildə təmin edir. Bu institutlaşma universitetin tədqiqat potensialını regionun inkişaf ehtiyacları ilə uzlaşdırmağa imkan verir.

Leuven modelinin mühüm xüsusiyyətlərindən biri universitet-sənaye əməkdaşlığının yalnız iri şirkətlərlə deyil, eyni zamanda kiçik və orta sahibkarlıq subyektləri ilə də qurulmasıdır. Yerli və regional şirkətlər universitetin elmi bilik və tədqiqat infrastrukturlarından faydalanaraq məhsullarını təkmilləşdirir, yeni texnologiyalar tətbiq edir və rəqabət qabiliyyətlərini artırırlar. Universitet isə bu əməkdaşlıq sayəsində real problemlərə əsaslanan tədqiqat mövzuları əldə edir və elmi fəaliyyətini cəmiyyətin ehtiyacları ilə daha sıx əlaqələndirir.

Bu qarşılıqlı əməkdaşlıq regionda yeni iş yerlərinin yaranmasına, yüksəkixtisaslı kadrların məşğulluğunun artmasına və innovasiya yönümlü iqtisadi mühitin formalaşmasına səbəb olmuşdur.

Leuven təcrübəsi, eyni zamanda göstərir ki, universitet-şəhər münasibətləri yalnız şəhər sərhədləri ilə məhdudlaşmır. Universitetin təsir dairəsi daha geniş regional miqyası əhatə edir, ətraf şəhər və bölgələrin inkişafına da təkan verir.

### *Naxçıvan və Naxçıvan Dövlət Universiteti: mövcud potensial və çağırışlar*

Naxçıvan şəhəri özünəməxsus inzibati statusu ilə Azərbaycan şəhərləri arasında xüsusi mövqe tutur. Bu status şəhərin inkişaf perspektivlərinə yalnız fiziki infrastrukturun genişləndirilməsi və iqtisadi aktivliyin artırılması prizmasından yanaşmağı kifayət qədər əsaslandırmır. Müasir şəhər inkişafı yanaşmalarına uyğun olaraq Naxçıvanın gələcək inkişaf modeli insan kapitalının keyfiyyətli formalaşdırılması, bilik istehsalının təşviqi və sosial potensialın sistemli şəkildə gücləndirilməsi üzərində qurulmalıdır. Məhz bu amillər şəhərin uzunmüddətli və dayanıqlı inkişafını təmin edən əsas strateji resurslar kimi çıxış edir. Bu baxımdan, ali təhsil və elmi-tədqiqat infrastrukturu Naxçıvanın inkişaf strategiyasında mərkəzi yer tutmalı, şəhərin regional bilik və innovasiya mərkəzinə çevrilməsinin əsas dayaq nöqtəsi kimi dəyərləndirilməlidir.

Bu baxımdan, Naxçıvan Dövlət Universiteti Naxçıvanın təhsil sisteminin mərkəzində dayanmaqla yanaşı, şəhərin elmi, mədəni və ictimai həyatında da aparıcı rol oynayır. Universitetin fəaliyyəti nəticəsində yetişən mütəxəssislər dövlət idarəçiliyi, təhsil, səhiyyə, iqtisadiyyat və sosial xidmət sahələrində ölkəmizin inkişaf proseslərinə birbaşa töhfə verirlər.

Universitetin şəhər həyatındakı rolu təkcə kadr hazırlığı ilə məhdudlaşmır. Naxçıvan Dövlət Universiteti mədəni tədbirlərin təşkili, elmi konfranslar və sosial layihələr vasitəsilə şəhərin intellektual mühitini zənginləşdirir. Universitetin tələbə və akademik heyəti şəhərin sosial dinamizminə canlılıq gətirir, gənclərin ictimai fəallığını artırır və mədəni müxtəlifliyin qorunmasına şərait yaradır.

Universitetin beynəlxalq əlaqələri və tərəfdaşlıqları Naxçıvanın qlobal akademik şəbəkələrə inteqrasiyası üçün mühüm imkanlar açır. Birgə təhsil proqramları, mübadilə layihələri və beynəlxalq tədqiqat təşəbbüsləri şəhərin tanınmasına, intellektual mühitin beynəlxalqlaşmasına və yeni ideyaların regiona cəlb edilməsinə xidmət edə bilər. Lakin bu potensialın reallaşdırılması bir sıra çağırışlarla üzləşir. Naxçıvanın coğrafi izolyasiyası, məhdud yerli bazar və investisiya imkanları universitet əsaslı inkişaf modelinin tətbiqini daha kompleks edir. Universitetin elmi-tədqiqat fəaliyyətinin şəhərin iqtisadi və sosial ehtiyacları ilə tam uzlaşdırılması üçün institusional mexanizmlərin gücləndirilməsinə ehtiyac vardır. Texnologiya transferi, universitet-biznes əməkdaşlığı və tətbiqi tədqiqatların stimullaşdırılması istiqamətində daha sistemli yanaşmalar tələb olunur.

Universitet şəhər üçün yalnız təhsil verən qurum deyil, strateji tərəfdaş kimi qəbul edilməlidir. Şəhərsalma, sosial inkişaf, mədəniyyət və iqtisadiyyat sahələrində qəbul edilən qərarlarda universitetin elmi ekspertizası və insan kapitalı nəzərə alındıqda daha dayanıqlı və balanslı inkişaf modeli formalaşa bilər. Bu yanaşma Naxçıvanı tədricən "universitet şəhəri" konsepsiyasına yaxınlaşdırar və onun regional miqyasda bilik əsaslı inkişaf mərkəzinə çevrilməsi üçün möhkəm zəmin yaradar.

Dünya təcrübəsi göstərir ki, universitetlərin şəhər inkişafındakı rolu yalnız təhsil sahəsi ilə məhdudlaşmır, əksinə, iqtisadi strukturun yenilənməsində, mədəni mühitin formalaşmasında və şəhərin qlobal miqyasda tanınmasında həlledici amilə çevrilir. Yuxarıda sadaladığımız Kembric, Bolonya və Leuven nümunələri də sübut edir ki, universitetlər şəhərlərin inkişaf trayektoriyasını dəyişə, onları bilik və innovasiya mərkəzinə çevirə və beynəlxalq arenada fərqləndirə bilər.

Bu nümunələrin hər biri fərqli tarixi, iqtisadi və sosial kontekstdə formalaşsa da, onları birləşdirən əsas cəhət universitetlə şəhər arasında qurulan sistemli və davamlı tərəfdaşlıqdır. Universitetlər bu şəhərlərdə ya texnoloji inkişafın lokomotivi, ya mədəni və elmi düşüncənin əsas dayaq nöqtəsi, ya da regional innovasiya sisteminin mərkəzi kimi çıxış edir.

Naxçıvan üçün də bu baxımdan mühüm imkanlar mövcuddur. Şəhərin inzibati statusu, tarixi-mədəni irsi və regional mərkəz funksiyası universitet əsaslı inkişaf modeli üçün əlverişli zəmin yaradır. Naxçıvan Dövlət Universitetinin mövcud akademik potensialının, insan kapitalının və beynəlxalq əlaqələrinin şəhərin ümumi inkişaf strategiyasına sistemli şəkildə inteqrasiya olunması Naxçıvanın sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoya bilər. Bu inteqrasiya universitetin yalnız kadr hazırlayan qurum deyil, eyni zamanda şəhərin mədəni, sosial və iqtisadi təşəbbüslərində fəal iştirak edən strateji tərəfdaş kimi çıxış etməsini nəzərdə tutur.

Bununla belə bu prosesin uğuru mərhələlilik, realist yanaşma və yerli xüsusiyyətlərin nəzərə alınması ilə birbaşa bağlıdır. Dünya modellərinin mexaniki şəkildə tətbiqi deyil, onların Naxçıvanın real imkanlarına uyğunlaşdırılmış elementlərindən istifadə daha məqsədəuyğundur.

Nəticə etibarilə, Naxçıvan Dövlət Universitetinin potensialının şəhərin inkişaf siyasətinin ayrılmaz hissəsinə çevrilməsi Naxçıvanı təkcə regional idarəetmə mərkəzi deyil, eyni zamanda bilik, mədəniyyət və innovasiya yönümlü şəhər kimi formalaşdıra bilər. Bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atıldığı təqdirdə Naxçıvan gələcəkdə universiteti ilə tanınan şəhərlər sırasında layiqli yer tuta və regional miqyasda nümunəvi inkişaf modeli təqdim edə bilər.



# Professor Vəli Baxşəliyev: Əcəmi Naxçıvani yaradıcılığı Naxçıvan şəhərinin memarlıq simasının formalaşmasında çox böyük rol oynayıb

**Ötən il 30 illik həsrətimizə son qoyan zəfərin 5 illiyini yüksək əhvalla qeyd etdik. Noyabrın 8-də Bakının Azadlıq meydanında keçirilən hərbi paradda qalib ordumuzun gücünü dünya bir daha gördü. O güc illərlə talan edilən, dağıdılan, xarabaya çevrilən torpağın dirçəliş gücü idi. Dünya bir daha gördü ki, torpağın əsl sahibləri kim imiş və güc, sadəcə, müharibələr etmək, günahsız insanları öldürmək, şəhərləri dağıtmaq deyil, qurmaq, yaratmaq, yaşatmaq əzmidir. Güc anlayışı sülhlə birləşəndə daha əzəmətli, daha ədalətli və bəşəriyyətə daha faydalı olur. Torpaqlarını mənfur düşmənin tapdağından zərrə-zərrə təmizləyən Azərbaycan Qarabağa – əzəli ata yurduna Böyük Qayıdışı ilə zəfər tarixinin səhifələrini tamamlamış oldu. Beləcə, zəfərin davamı olaraq quruculuq ab-havası ilə daxil olduq yeni ilə. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 dekabr tarixli Sərəncamı ilə 2026-cı il ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan olundu.**

**Memarlıq, sadəcə, tikinti texnikası deyil, bir şəhərin ruhunu, mədəniyyətini nümayiş etdirən, gələcək nəsillərə daş abidələr vasitəsilə mesaj ötürən tarixi yaddaş, irsdir. 900 ilin süzgəcindən dumduru süzülüb gələn Əcəmi irsi kimi. Müsahibimiz AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Baxşəliyevlə memar Əcəmi yaradıcılığına Naxçıvanın çoxillik şəhər mədəniyyəti mövzusu ilə körpü saldıq.**

**“Şəhərsalma və Memarlıq İli”**





***– Məlum olduğu kimi, Azərbaycanda, eləcə də Naxçıvanda şəhər mədəniyyətinin izləri uzaq tarixə söykənir və bu proses, öz növbəsində, memarlıq məktəbini formalaşdırıb.***

– Əvvəla qeyd edim ki, ölkə başçısının 2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı Sərəncamı Qarabağın geniş tikinti meydanına çevrildiyi bir dövrdə verilib. Lakin bu quruculuq işləri yalnız Qarabağda deyil, ölkəmizin bütün regionlarında həyata keçirilir. Naxçıvan şəhərinin yenidən qurulması üçün də Baş plan hazırlanıb. Bakı, Sumqayıt, Gəncə kimi şəhərlərimizin memarlıq siması günü-gündən gözəlləşir. Suala gəldikdə isə Naxçıvanın ərazisi qədim şəhər mədəniyyətinin mərkəzi olub. Naxçıvan Azərbaycanın cənub bölgəsi olduğuna görə İran ərazisi ilə, Şərqi Anadolu və Şimali Mesopotamiya ilə əlaqələrdə olub. Son illərin arxeoloji araşdırmaları göstərir ki, e.ə VI minilliyin sonu, V minilliyin əvvəllərində burada qədim mədəniyyətlərin, o cümlədən Ubeyd mədəniyyətinin izləri vardır. Ubeyd tayfaları şəhər mədəniyyətinin gətiriciləri hesab olunur. Ona görə də Naxçıvanda erkən şəhərlərin formalaşması, Naxçıvanın cənub bölgələri ilə Mesopotamiya, Şərqi Anadolu ilə əlaqələrinin nəticəsi idi ki, burada qədim insanlar məskunlaşmış və şəhər zehniyyətini buraya gətirmişdilər.

Orta Tunc dövründə burada qədim şəhərlər yaranmışdı. Bu şəhərlərin izini biz həm Naxçıvan şəhərində, həm II Kültəpə yaşayış yerində, Qızqala və Şahtaxtı yaşayış yerlərində görürük. Əlbəttə, qədim şəhərlər müasir şəhərlər kimi deyildi, onlar ətrafı möhkəmləndirilmiş qala-şəhərlər idi. Məsələn, Troya şəhəri kimi. Burada sənətkarlar, tacirlər, eyni zamanda şəhərin ətrafında əkinçi-maldar tayfalar da məskunlaşa bilirdilər. Arxeoloji tədqiqatlar göstərir ki, e.ə. III minillikdə ətrafı möhkəmləndirilmiş müdafiə tikintiləri meydana gəlib. Məsələn, Qazançıqala yaşayış yeri 20 ha sahəni əhatə edir. Qızqala da böyük ərazini əhatə edirdi. Böyük qala-şəhərlərinin olması, müdafiə divarları ilə əhatə olunması insanların mühafizəyə ehtiyacı olduğunu göstərir. Bu qala divarları arxasında elit insanlar deyil, eyni zamanda əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olan insanlar da düşmən hücumları zamanı müdafiə olunurdular. Naxçıvanda şəhər mədəniyyətinin formalaşması III minilliyin ortalarına təsadüf edir. Ən qədim şəhərlər Naxçıvanda, daha sonra Qarabağ bölgəsində yaranıb və Azərbaycanın digər bölgələrinə də təsirsiz ötüşməyib.



***– Bəs Əcəmi yaradıcılığı Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına necə təsir göstərib?***

– Şəhər mədəniyyəti qədim dövrlərdən var idi, bu proses III minillikdən başlayaraq bütün dövrlərdə, II minillikdə, I minillikdə də davam edib. Daha sonra orta əsrlərdə Naxçıvanda şəhərtipli yaşayış yerləri olub və Naxçıvan şəhəri orta əsrlərdə, xüsusilə IX-XI əsrlərdə yüksək inkişaf səviyyəsinə çatıb, hətta XI əsr mənbələrində Naxçıvan “Nəqşicahan” adı ilə təqdim olunub. Bu da Naxçıvanın inkişaf etmiş bir mədəniyyət mərkəzi olduğunu göstərir. Şübhəsiz ki, hər bir şəhərin inkişafı onun memarlıq görünüşünü də formalaşdırır. Əcəmi Naxçıvaninin də memarlığı Naxçıvan şəhərinin memarlıq simasının formalaşmasında çox böyük rol oynayıb. Möminə xatun türbəsi və onun ətrafı Naxçıvan şəhərinin mərkəzi olub. Orada hakim dairələrə aid tikintilər, divanxanalar, Came məscidi XIX əsrə qədər qalırmış. XI-XII əsrlərdə Naxçıvan memarlıq baxımından cəlbedici bir şəhər olub. Hətta bu haqda Övliya Çələbinin məlumatları da var. O öz əsərində Naxçıvanda 30 cümə məscidinin olduğunu yazıb. Şəhərin arxitekturasının formalaşmasında dövrün memarları böyük rol oynayıb. Dövrümüzə yalnız tək-tək memarların, o cümlədən Əcəminin adı gəlib çatıb. Məsələn, Bərdə türbəsini inşa edən Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani kimi onlarla memarlar olub. Epiqrafik alimlərimiz kitabələrdə, əsasən, Naxçıvanda XII-XIII əsrlərdə yaşayan memarların adını bərpa edə biliblər. Memarlıq olmadan şəhərin mədəni siması mümkün deyildi. O dövrdə şəhərin mədəniyyət mərkəzləri Cümə məscidləri hesab olunurdu, divanxanalar şəhərin mərkəzində yerləşən tikintilər idi ki, memarların planı, layihəsi əsasında inşa olunmuşdu.

XI-XII əsrlər Azərbaycan memarlığının çiçəklənən bir dövrüdür. Əcəminin memarlıq layihələri də bu şəhərin formalaşmasında böyük rol oynayıb. Möminə xatun və Yusif Küseyr oğlu türbələri bu günümüzə kimi gəlib çatıb. Tədqiqatçılar belə hesab edirlər ki, o dövrdə Naxçıvan şəhərinin mərkəzində olan bütün tikintilərin memarı Əcəmi Naxçıvani olub. XIX əsrə qədər Möminə xatun türbəsinin yaxınlığında baştağ da var idi, üzərində “əməli Əcəmi Əbubəkr oğlu” sözlərinin olduğu oxunub. Əcəmi Naxçıvani Naxçıvan memarlığı üçün çox iş görüb və onun memarlıq ənənələrinin təsiri qonşu ölkələr, Azərbaycanın şimal, cənub bölgələrinə, Şərqi Anadoluya, Orta Asiyaya qədər gedib çıxıb.

Xaraba Gilan ərazisində onlarla abidələr var ki, Əcəmi ruhu duyulur. Əcəmi yaradıcılığı özünəməxsusluğu ilə seçilib. Memarlıq elementlərində biz bu yaradıcılığı görürük. Onun tikdiyi abidələr yeraltı və yerüstü hissədən ibarətdir. Möminə xatunun 10 üzünün hər birinin özünəməxsus bəzəyi, naxış sistemi var. Stalatiklərdən, həndəsi motivli ornamentlərdən, ərəb qrafikalı yazılardan ibarət memarlıq elementlərini biz digər abidələrdə – Xaraba Gilanda, Cənubi Azərbaycanda Göy Günbəz məscidində, Bərdə türbəsində də görürük.

***– Ölkə başçısının müvafiq sərəncamları ilə bu il böyük memar Əcəminin 900 illik yubileyi UNESCO səviyyəsində keçiriləcək, Naxçıvan şəhərində abidəsi ucaldılacaqdır. 2026-cı ildə “Şəhərsalma və Memarlıq İli”ndə belə mühüm tədbirlərin həyata keçirilməsi, həmçinin Əcəminin şah əsəri sayılan dünya əhəmiyyətli Möminə xatunun bərpası istiqamətində ötən ildən başlanan işlər tarixi-memarlıq irsinə sayğı və bu irsin müasir memarlıqda izlərinin qorunmasına bir çağırış sayıla bilərmi?***

– Mədəniyyət hər bir xalqın, etnosun tanıdılması üçün əsas məsələdir. Həmişə deyirlər ki, midiyalılar özləri üçün mədəniyyət yaradıb. Skiflər, urartular mədəniyyət yaradıb. Manna dövlətinin özünəməxsus mədəniyyəti yoxdur. Halbuki Manna mədəniyyətinin bir qismi urartular, bir qismi skiflər, bir qismi midiyalılara aid edilib. Xalqların tarixini nə ilə müəyyən edirik – mədəniyyətlərlə. Bizim Şomutəpə mədəniyyəti, Kültəpə mədəniyyəti, Dalmatəpə mədəniyyəti burada türk tayfalarının mövcudluğunun göstəricisidir. Abidələr bizim daş pasportlarımızdır. Ərazi iddiaları daha çox nəyə əsaslanıb? Abidələrə. Guya ki, burada xristian abidələri var. Xristian abidələri olub, lakin bu erməniyə aiddir demək deyil, dünyanın müxtəlif xalqları var, bizim ulu əcdadlarımız albanlar olubdur. Türklərin özünün böyük bir hissəsi xəzər türkləri, qıpçaq türkləri xristianlığa inanıblar. Xristianlıq yalnız ermənilərlə bağlı element deyil. Bu abidələri bəhanə edərək bizə qarşı ərazi iddiaları sürürdülər, bizim burada türk xalqına məxsus abidələr xristian abidələrindən daha da qədimdir. Qədim mənbələrdə Azərbaycan ərazisində ermənilərin yaşaması ilə bağlı heç bir məlumat yoxdur. Əcəmi memarlığının mühafizə olunması da, bu baxımdan, bizim üçün əhəmiyyətlidir. Naxçıvanda, Azərbaycanda mövcudluğumuzun əsas simvollarındandır. Əcəmi memarlıq irsinin sonrakı dövrlərində biz müəyyən dəyişikliklərlə davamını görürük. Ənənələr müasir dövrə qədər gəlib çıxıb. Əcəmi şəxsiyyəti və yaradıcılıq irsi ilə bağlı imzalanan hər 3 Sərəncam Azərbaycanın orta əsr memarlığına verilən qiymətdir. Müasir dövrün öz tələbləri var. Orta əsr memarlığının bütün elementlərini biz müasir dövr tikililərində saxlaya bilmərik. Lakin bu o demək deyil ki, müasirlik adı altında milli ornamentlərimizdən istifadə etməyək. Əcəmi memarlığının elə elementləri var ki, onlar müasir memarlıqda tətbiq oluna bilər. Öz dilimizi qoruduğumuz kimi, mədəni irsimizi də qorumalı, mühafizə etməliyik. Bir xalqın dili, mədəniyyəti itərsə, özü də itər.

***– Müsahibə üçün sağ olun.***

**Ruhiyyə RƏSULOVA**



# Gələcəyin dəmiryolçuları:

***Zəngəzur dəhlizi Türk dünyasını bir-birinə bağlayan, regionda davamlı sülh və əməkdaşlığa xidmət edən mühüm strateji körpüdür. Bu dəhlizin açılması tarixi ədalətin öz yerini tapması, Naxçıvanın uzun illər davam edən blokadadan çıxması deməkdir. Zəngəzur dəhlizi Azərbaycanı Şərqlə Qərbi bağlayan qlobal logistik qovşağa çevirərək ölkəmizin geosiyasi və iqtisadi mövqeyini daha da gücləndirəcək. Bu yolun açılması ilə Naxçıvan Muxtar Respublikasında yeni bir inkişaf mərhələsinin əsası qoyulacaq. İllərdir, ümidlə gözlənilən bu strateji layihə muxtar diyarın iqtisadi, sosial və mədəni həyatında köklü dəyişikliklərə yol açacaq.***



# Naxçıvanda yeni nəsil kadrlar formalaşır









Artıq bu gün Naxçıvanda gələcəyə hesablanan hazırlıq işləri aparılır, xüsusilə kadr potensialının formalaşdırılması diqqət mərkəzində saxlanılır. Bu baxımdan, gənclərin peşəkar kadr kimi yetişdirilməsi prioritet məsələdir. Naxçıvanda gənclər bu çağırışa biganə qalmır, Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən kolleclərdə, peşə təhsili müəssisələrində təhsil alaraq gələcəyin ixtisaslı mütəxəssislərinə çevrilirlər. Texniki və peşə təhsili alan gənclər Zəngəzur dəhlizinin açılmasından sonra yaranacaq yeni imkanlara hazır olmağı qarşılarına məqsəd qoyublar. Onlar logistika, nəqliyyat infrastrukturu, mexanika, energetika və digər strateji sahələr üzrə bilik və bacarıqlara yiyələnərək regionun inkişafında fəal rol oynamağa hazırlaşırlar. Bu həm də dövlətin həyata keçirdiyi gənclər siyasətinin real nəticəsidir. Naxçıvanlılar isə bu tarixi mərhələyə inamla, ümidlə addımlayır, doğma diyarın inkişafına öz töhfələrini verməyə hazır olduqlarını əməlləri ilə sübut edirlər.

Biz də bu istiqamətdə təhsil sahəsində görülən işlərlə yaxından tanış olmaq üçün Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Texniki Kollecə yollanaraq Lokomotiv və elektrik qatarı təsərrüfatı ixtisası üzrə təhsil alan tələbələrin dərs prosesi ilə yaxından tanış olduq, onların təssüratlarını öyrəndik. Burada ən çox diqqətimizi cəlb edən isə "Ağıllı dəmir yolu" layihəsi oldu. Müasir texnologiyalara əsaslanan bu layihə ilk baxışdan tələbələrin innovativ düşüncə tərzini və yeniliklərə açıq yanaşmasını aydın şəkildə ortaya qoyur. Araşdırmalar zamanı məlum oldu ki, layihə tələbələrin müasir yanaşmaları tətbiq etməklə hazırladıqları praktiki və aktual bir təşəbbüsdür. Burada ağıllı idarəetmə sistemləri, təhlükəsizliyin artırılması, enerji səmərəliliyi və dəmir yolu nəqliyyatının gələcək inkişaf perspektivləri əhatə olunub. Bu cür layihələr gənc kadrların yalnız nəzəri biliklərlə kifayətlənmədiyini, eyni zamanda real sahə tələblərinə uyğun düşünərək yaradıcılıq nümayiş etdirdiyini göstərir. Texniki Kollecdə formalaşan bu müasir tədris mühiti, gələcəkdə dəmir yolu təsərrüfatında peşəkar və yenilikçi mütəxəssislərin yetişəcəyinə inam yaradır.

Lokomotiv və elektrik qatarı təsərrüfatı ixtisası üzrə təhsil alan II kurs tələbəsi Səkinə Məmmədlini ixtisas seçimi zamanı ilk cəlb edən də məhz bu sahə olub. Onun sözlərinə görə, dəmir yollarının yenidən açılması, xüsusilə də region üçün strateji əhəmiyyət daşıyan Zəngəzur dəhlizi kimi layihənin reallaşması bu ixtisasa marağı daha da artırır. Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın nəqliyyat imkanlarının genişlənəcəyini, yeni dəmir yolu xətlərinin istismara veriləcəyini qeyd edən tələbə bu sahədə peşəkar kadrlara böyük ehtiyac yaranacağını bildirir. Bizimlə söhbətində qeyd etdi ki, kollecdə ixtisasla bağlı keçirilən fənlər və istehsalat praktikaları tələbələrin gələcək peşə həyatına hazırlanmasında mühüm əhəmiyyət kəsb edir. Kollecin maddi-texniki bazasının güclü olduğunu, dəmir yolu sahəsi üçün xüsusi təchiz olunmuş otaqların mövcudluğunu deyən Səkinə Məmmədli bu şəraitin bilik və bacarıqların formalaşmasına geniş imkan yaratdığını xüsusi vurğuladı. Gələcək planlarından danışan tələbə onu da qeyd etdi ki, kolleci bitirdikdən sonra universitetdə bakalavr pilləsi üzrə təhsilini davam etdirmək niyyətindədir: "Zəngəzur dəhlizi kimi iri nəqliyyat layihələri gənclər üçün yeni perspektivlər açır, dəmir yolu sahəsində oxuyan tələbələrə öz biliklərini real layihələrdə tətbiq etmək imkanı yaradır. Böyük ümidlə yolun açılacağı günü gözləyirik".

Kənan Cümşüdov da 2024-cü ildə Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecinin Lokomotiv və elektrik qatarı təsərrüfatı ixtisasına qəbul olan tələbələrdəndir: "Təhsil aldığımız müddətdə ixtisasımıza uyğun olaraq həm nəzəri biliklərə yiyələnir, həm də müxtəlif praktik bacarıqlar əldə edirik. Bu bilik və bacarıqlar gələcək peşə fəaliyyətimiz üçün möhkəm təməl yaradır. Düşünürəm ki, ixtisasımızın perspektivi təkcə paytaxtla məhdudlaşmamalı, Azərbaycanın bütün rayon və kəndlərini əhatə etməlidir. Ümid edirəm ki, gələcək illərdə Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın dəmir yolu şəbəkəsi ilə ölkənin digər bölgələri arasında daha sıx əlaqə təmin olunacaq. Bu həm bölgənin inkişafına təkan verəcək, həm də bizim kimi gənc mütəxəssislərə geniş iş imkanları yaradacaq. Ən böyük arzum odur ki, əldə etdiyimiz bilikləri Vətənimizin inkişafı naminə tətbiq edək və Azərbaycanın bütün bölgələrində peşəkar kadrlar kimi fəaliyyət göstərək".

Dəmir yolu sahəsində atılacaq hər bir uğurlu addım ölkəmizin gələcəyinə aparan möhkəm relslər olacaq. Biz də gələcəyin dəmiryolçularına uğurlar arzulayırıq. Əminliklə demək olar ki, Zəngəzur dəhlizi Azərbaycanın milli maraqlarına xidmət edən strateji layihə kimi reallaşacaq. Bu dəhlizin açılması Naxçıvanın nəqliyyat-logistika imkanlarını genişləndirməklə yanaşı, muxtar respublikanın sosial-iqtisadi inkişafına da güclü təkan verəcək. Naxçıvanlılar bu tarixi mərhələyə inamla, ümidlə və ciddi hazırlıqla addımlayır, doğma diyarın inkişafına öz töhfələrini verməyə hazır olduqlarını əməlləri ilə nümayiş etdirirlər. Xüsusilə qeyd etmək lazımdır ki, peşə təhsili müəssisələrində dəmir yolu və nəqliyyat sahəsi üzrə ixtisaslı kadrların hazırlanmasına diqqət yetirilir. Belə ki, Şərur Peşə Liseyində 2025-2026-cı tədris ilində Dəmiryol stansiyası və keçid növbətçisi ixtisası üzrə 20 tələbə təhsil alır. Eynilə Ordubad Peşə Liseyində Dəmiryol stansiyası növbətçisi ixtisası üzrə 3 illik təhsil alan 17 tələbə var. Onlardan 3-ü qız, 14-ü isə oğlandır. Bu isə gələcəkdə Zəngəzur dəhlizi kimi strateji layihələrin uğurla reallaşdırılması üçün insan kapitalının formalaşdırıldığını göstərir.

**Bülbül RÖVŞƏNQIZI**




# "Diplomatic World Sweden" nəşrində Naxçıvan haqqında sənədli film təqdim olunub

İsveçdə siyasətçilər və xarici səfirliklərin əməkdaşları üçün nəzərdə tutulmuş "Diplomatic World Sweden" nəşrində isveçli rejissor və fotoqraf Mikael Silkeberqin Naxçıvana həsr olunmuş "Nuhun izi ilə" adlı sənədli filmi barədə material dərc edilib.

Məqalə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 102-ci ildönümünə həsr olunub və regionu bəşər sivilizasiyasının ən qədim beşiklərindən biri kimi təqdim edir. Filmdə Azərbaycanın Naxçıvan bölgəsi minilliklər boyu mifologiyanın, tarixin və mədəni irsin formalaşdırdığı unikal kimliyə malik məkan kimi göstərilir.

Sənədli filmdə əsas süjet xətti Nuh Peyğəmbərlə bağlı qədim rəvayət və əfsanəyə görə, gəminin dayandığı Gəmiqaya dağı ilə bağlı inanclardan başlayır. Bu yanaşma vasitəsilə regionun dərin tarixi kökləri, erkən insan məskənlərinin kəsişmə nöqtəsi kimi rolu və mədəni inkişaf mərkəzi olması ön plana çıxarılır. Ekran əsərində Gəmiqayanın qayaüstü təsvirlərinə, memarlıq abidələrinə, orta əsr məqbərələrinə və ümumbəşəri mədəni dəyər daşıyan digər tarixi obyektlərə xüsusi yer verilir.

Filmdə Naxçıvanın qeyri-maddi mədəni irsi də ayrıca mövzu kimi təqdim olunur. Nəsildən-nəslə ötürülən ənənəvi rəqslər, musiqi nümunələri və bədii ifadə formaları regionun mədəni kimliyinin ayrılmaz hissəsi kimi göstərilir. Bununla yanaşı, Naxçıvanın formalaşmasına təsir etmiş və onun dünya tarixindəki yerini müəyyənləşdirmiş görkəmli tarixi və mədəni şəxsiyyətlər haqqında da məlumat verilir.

# Naxçıvan Sənaye Parkının təqdim etdiyi biznes imkanları sahibkarların diqqətinə çatdırılıb



Fevralın 10-da Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində sahibkarlarla görüş keçirilib.

Tədbirin əsas məqsədi Naxçıvan Sənaye Parkı barədə sahibkarları ətraflı məlumatlandırmaq, parkın təqdim etdiyi investisiya imkanlarını, tətbiq olunan güzəşt mexanizmlərini və biznes perspektivlərini diqqətə çatdırmaq olub.

Görüşdə çıxış edən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev muxtar respublikada sahibkarlığın inkişafı, sənayeləşmənin sürətləndirilməsi və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib. Nazir Naxçıvan Sənaye Parkının regionda istehsalın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması və ixracyönümlü məhsul istehsalının təşviqi baxımından mühüm rol oynayacağını vurğulayıb.

Daha sonra çıxış edən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Seymur Adıgözəlov agentliyin fəaliyyət istiqamətləri, investisiya təşviqləri, rezidentlər üçün yaradılan imkanlar və dövlət-özəl sektor tərəfdaşlığı mexanizmləri barədə ətraflı məlumat verib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Regionların inkişafı şöbəsinin müdiri Zamin Bədirxanov bildirib ki, ölkədə həyata keçirilən iqtisadi islahatlar qeyri-neft sektorunun və sənayeləşmənin inkişafına, regionlarda real sektorun genişlənməsinə xidmət edir.

Sonda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin müavini Emil Hacıyev tərəfindən "Naxçıvan Sənaye Parkında biznes imkanları" mövzusunda təqdimat edilib. Təqdimatda, həmçinin rezidentlər üçün tətbiq edilən investisiya təşviqləri, vergi və gömrük güzəştləri, ixracyönümlü istehsalın stimullaşdırılması imkanları diqqətə çatdırılıb.

Görüş qarşılıqlı fikir mübadiləsi şəraitində keçib, sahibkarların sualları cavablandırılıb və Naxçıvan Sənaye Parkında fəaliyyət göstərmək niyyətində olan biznes subyektləri üçün maraqdoğuran məsələlər müzakirə olunub.

# Naxçıvanda kənd təsərrüfatında yeni nəfəs
## Suvarma infrastrukturu yenilənir

Naxçıvan Muxtar Respublikasında torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, meliorasiya və irriqasiya sistemlərinin dayanıqlı istismarının təşkili istiqamətində Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi tərəfindən ötən il və cari ildə mühüm işlər görülüb. Həyata keçirilən tədbirlər kənd təsərrüfatının inkişafına, torpaqların münbitliyinin qorunmasına və su ehtiyatlarından səmərəli istifadə olunmasına böyük töhfə verir. Məlumat üçün qeyd edək ki, 2025-ci il ərzində su istifadəçilərinə, ümumilikdə, 211,97 milyon kubmetr su verilib, bunun müqabilində təkrar suvarma da daxil olmaqla, 142 541 hektar torpaq sahəsinin suvarılması təmin edilib.

Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin əməkdaşı Lalə Yusifova bildirib ki, ötən il görülən işlər çərçivəsində sel və daşqın sularının qarşısının alınması məqsədilə 5,41 kilometr uzunluqda selə qarşı istiqamətləndirici bənd qurulub: "Suvarma və drenaj şəbəkələrinin istismar vəziyyətinin yaxşılaşdırılması istiqamətində genişmiqyaslı təmizləmə işləri aparılıb, 279,67 kilometr beton və torpaq kanallar, 329,48 kilometr ara arxlar, 64,2 kilometr kollektor lildən təmizlənib. Su təsərrüfatı infrastrukturunun yenilənməsi istiqamətində də mühüm addımlar atılıb. 2025-ci il ərzində 7,91 kilometr içməli su, 1,18 kilometr kanalizasiya, 5,42 kilometr suvarma, 1,64 kilometr təzyiqli boru və 0,52 kilometr kaptaj xətti çəkilib".

Qurum əməkdaşı vurğulayıb ki, bununla yanaşı, mövcud şəbəkələrdə təmir-bərpa işləri aparılıb: "Belə ki, 25,22 kilometr içməli su, 3,84 kilometr kanalizasiya, 4,66 kilometr kaptaj, 1,07 kilometr qapalı drenaj xətti, suvarma boru xətlərinin 16,67 kilometri və təzyiqli boru xətlərinin 30,22 kilometri əsaslı şəkildə təmir olunub. Aparılan meliorativ tədbirlər torpaqların şoranlaşmasının qarşısının alınmasına da mühüm təsir göstərib. Şərur rayonunun Dəmirçi, Maxta, İbadulla, Diyadin, Tumaslı və Püsyan kollektorlarında görülən işlər nəticəsində 373 hektar, Babək rayonunun Güznüt-Çeşməbasar, Tumbul və Nehrəm kollektorlarında həyata keçirilən tədbirlər nəticəsində isə 414 hektar olmaqla, ümumilikdə, 787 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınıb və şoranlaşma riskinin qarşısı alınıb".

Lalə Yusifova diqqətə çatdırıb ki, cari ilin ötən dövrü ərzində muxtar respublika ərazisində, ümumilikdə, 30 967 m beton və torpaq kanallarda, 6 613 m kollektor xəttində, həmçinin 44 430 m ara arxlarda lildən təmizləmə işləri aparılıb.

Müsahibə zamanı o, meliorativ tədbirlərin Babək rayonu ərazisini də əhatə etdiyini qeyd edib. Bildirib ki, Babək şəhəri, Nehrəm qəsəbəsi, Arazkənd, Şıxmahmud, Xəlilli və Qaraçuq kəndlərində 27 420 metr ara arx lildən təmizlənib. Eyni zamanda Arazkənd kəndi və Nehrəm qəsəbəsi ərazisində yerləşən 3 725 metr kollektor xəttində də təmizləmə işləri görülüb.

Lalə Yusifova vurğulayıb ki, kanal, arx və kollektorların lildən təmizlənməsi suyun sərfəli və səmərəli istifadəsinə şərait yaradır, su axınının qarşısını alan maneələri aradan qaldırmaqla kanalların su ötürücülük qabiliyyətini artırır. Onun sözlərinə görə, bu tədbirlər su itkilərinin azalmasına, torpaqların şoranlaşmasının qarşısının alınmasına, əkin sahələrinin su ilə təminatının yaxşılaşdırılmasına və kənd təsərrüfatında məhsuldarlığın artmasına mühüm töhfə verir. Məlumat üçün bildirilib ki, kanal, arx və kollektorların lildən təmizlənməsi işləri hazırda mütəmadi şəkildə davam etdirilir. Ümumilikdə, Nehrəm qəsəbəsində həyata keçirilən meliorativ tədbirlər yalnız texniki xarakter daşımır, kəndlinin əməyinə dayaq olmaqla aqrar sahənin inkişafına da real stimul verir. Kanal, arx və kollektorların mütəmadi təmizlənməsi su ehtiyatlarından səmərəli istifadəyə imkan yaradır, kənd təsərrüfatında məhsuldarlığın yüksəlməsinə, torpaqların münbitliyinin qorunmasına və regionda dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.




Cari ildə də su təsərrüfatı sahəsində işlər ardıcıl şəkildə davam etdirilir. Suvarma mövsümünə hazırlıq məqsədilə nasos stansiyalarının, hidrotexniki qurğuların və suvarma şəbəkələrinin texniki baxışı həyata keçirilir, kanalların və kollektorların təmizlənməsi təmin olunur. 2026-cı ildə kanallarda 33,24 kilometr, ara arxlarda 49,71 kilometr, kollektorlarda isə 7,29 kilometr məsafədə lildən təmizləmə işləri aparılıb.

Görülən meliorativ tədbirlər kənd təsərrüfatının inkişafına birbaşa müsbət təsir göstərir. Suvarma sistemlərinin ötürücülük qabiliyyətinin artırılması suyun əkin sahələrinə vaxtında və itkisiz çatdırılmasına şərait yaradır, məhsuldarlığın yüksəlməsinə imkan verir. Kollektor-drenaj şəbəkələrinin işlək vəziyyətdə saxlanılması torpaqlarda qrunt sularının səviyyəsinin tənzimlənməsinə, torpaqların münbitliyinin qorunmasına və fermerlərin daha səmərəli fəaliyyətinə zəmin yaradır.

Müasir dövrdə su ehtiyatlarından səmərəli və qənaətli istifadə xüsusi əhəmiyyət daşıyır. Su itkilərinin minimuma endirilməsi, suvarma normalarına riayət olunması və mütərəqqi suvarma üsullarının tətbiqi su anbarlarında mövcud ehtiyatların qorunmasına, daha geniş əkin sahələrinin dayanıqlı su təminatına imkan verir. Beləliklə, Naxçıvan Muxtar Respublikasında su təsərrüfatı sahəsində həyata keçirilən ardıcıl və planlı tədbirlər torpaq fondunun qorunmasına, kənd təsərrüfatının inkişafına və regionun sosial-iqtisadi yüksəlişinə mühüm töhfə verməkdədir.

**Zəhra VƏLİYEVA**

# Yeni kommunal təyinatlı texnikalar xidmətin yüksəldilməsinə imkan verir

Yaşayış məntəqələrinin abadlaşdırılması, əhalinin gündəlik həyat şəraitinin yaxşılaşdırılması və kommunal xidmətlərin müasir tələblər səviyyəsində təşkili bu gün dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi diqqət mərkəzində saxlanılır. Son illər bu sahədə həyata keçirilən ardıcıl tədbirlər Naxçıvan Muxtar Respublikasında da öz real nəticələrini verməkdədir. Məhz bu məqsədlə ötən ilin sonunda Naxçıvan şəhər və rayon icra hakimiyyətləri müasir texniki göstəricilərə malik kommunal təyinatlı texnikalarla təmin olunub. Sifariş edilmiş 31 ədəd yeni texnikanın muxtar respublikaya gətirilməsi yaşayış məntəqələrində xidmət keyfiyyətinin yüksəldilməsinə yönəlmiş kompleks tədbirlərin tərkib hissəsidir. Bu addım ölkə rəhbərliyinin bölgələrin sosial-iqtisadi inkişafına göstərdiyi davamlı qayğının bariz nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda kommunal xidmətlərin inkişafının prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilməsi də bu sahəyə verilən strateji önəmin göstəricisidir. Dövlət Proqramı çərçivəsində görülən işlər bir tərəfdən şəhər və kəndlərin abadlaşdırılmasına, digər tərəfdən isə əhalinin rahat yaşayış mühitinin formalaşdırılmasına xidmət edir.

Yerli icra hakimiyyəti orqanlarının təklifləri nəzərə alınmaqla yaşayış məntəqələrində təmizlik, yaşıllaşdırma, işıqlandırma və digər kommunal işlərin daha səmərəli təşkili məqsədilə müxtəlif təyinatlı texnikaların alınmasına muxtar respublika büdcəsinin investisiya xərcləri və digər mənbələr hesabına, ümumilikdə, 3 milyon manata qədər vəsait ayrılıb. Bu vəsait hesabına 30-dan çox yeni texnika alınıb və mərhələli şəkildə muxtar respublikaya gətirilib. Cari ildən etibarən isə texnikaların sayının daha da artırılması və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi planlaşdırılır. Satın alınmış çoxfunksiyalı yük və su avtomobilləri, yüksərnişin avtomobilləri, tullantıdaşıyan maşınlar, avtosəbətlər, qəza-bərpa avtomobilləri, yersüpürən texnikalar, ekskavator-yükləyicilər, buldozerlər, qoşqulu traktorlar və kran-manipulyatorlar kommunal təsərrüfatın maddi-texniki bazasını əhəmiyyətli dərəcədə möhkəmləndirir. Bu texnikalar yalnız cari problemlərin operativ həllinə deyil, həm də uzunmüddətli perspektivdə dayanıqlı inkişafın təmin olunmasına xidmət edir. Eyni zamanda yeni texniki imkanlar ekoloji-sanitar vəziyyətin yaxşılaşdırılmasına, yaşayış məntəqələrinin daha səliqəli və abad görkəm almasına real zəmin yaradır.

Dövlət qayğısının nəticəsi olaraq gətirilmiş texnikalar bölgələr üzrə məqsədyönlü şəkildə paylanıb. Belə ki, 12 texnika Naxçıvan şəhər, 2-si Şərur, 6-sı Babək, 7-si Ordubad, 2-si Culfa, 1-i Kəngərli və 1-i Şahbuz Rayon İcra hakimiyyətlərinin istifadəsinə verilib. Bununla yanaşı, növbəti mərhələdə Şərur rayonu üzrə 3, Culfa rayonu üzrə 2, Şahbuz rayonu üzrə 4 və Kəngərli rayonu üzrə 2 olmaqla daha 11 yeni texnikanın sifariş edilməsi də artıq planlaşdırılıb.

Bütün bu tədbirlər bir daha göstərir ki, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi təkcə texniki yenilənmə deyil, eyni zamanda sosial rifahın yüksəldilməsinə yönəlmiş ardıcıl dövlət siyasətinin mühüm tərkib hissəsidir. Yeni texnikaların tətbiqi əhalinin güzəranının yaxşılaşdırılmasına, yaşayış məntəqələrində xidmətin yüksəldilməsinə və insanların gündəlik həyatında rahatlığın təmin olunmasına hesablanıb.

**"Şərq qapısı"**





# “Sağlam məhəllə”lərdə yetişən sağlam gənclik





Bu gün Azərbaycan gəncliyi sağlam həyat tərzini yalnız gündəlik vərdiş kimi deyil, həm də öz inkişaf strategiyasının vacib hissəsi kimi qəbul edir. Müasir gənclər fiziki fəallığın sağlamlıq və sosial adaptasiya baxımından nə qədər önəmli olduğunu yaxşı dərk edirlər. Bunun nəticəsidir ki, son illər ölkənin bütün bölgələrində, o cümlədən Naxçıvanda idmana maraq əhəmiyyətli dərəcədə artıb. Həmçinin əhalinin idman xidmətlərinə çıxışının genişləndirilməsi, sağlam həyat tərzinin təşviqi bu gün dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Elə Naxçıvandan başlanılan “Sağlam məhəllə” layihəsi də məhz bu məqsədlərə xidmət edir. Layihə çərçivəsində bölgələrdə yaradılan müasir idman meydançaları uşaq, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili baxımından mühüm əhəmiyyət daşıyır. Artıq Babək, Culfa və Şahbuz rayonlarında “Sağlam məhəllə”lər sakinlərin istifadəsinə verilib. Bu məkanlarda vətəndaşlar minifutbol, basketbol, stolüstü tennis və şahmatla məşğul olmaq, həmçinin açıq havada quraşdırılmış trenajor avadanlıqlarından yararlanmaq imkanı əldə edirlər. Bu təşəbbüs yaşından asılı olmayaraq, hər bir sakinin idmana cəlb olunmasına, bədən tərbiyəsinin gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsinə xidmət edir. Ən önəmlisi isə layihə idmanın kütləviliyini artırmaqla yanaşı, cəmiyyətin sağlam gələcəyi üçün atılan mühüm addımdır.





Babək rayonunda yaradılan “Sağlam məhəllə”də olarkən yeni istifadəyə verilən idman məkanının yalnız uşaqların deyil, bütün yaş qruplarından olan insanların da marağına səbəb olduğu diqqətimizdən yayınmadı. Babək rayon sakini Məhəmməd Əliyevlə söhbətimizdə məlum oldu ki, əvvəl burada bu cür imkanlar olmadığından, xüsusən də uşaq və yeniyetmələr boş vaxtlarını daha çox evdə və ya küçədə keçirməyə məcbur olurdular. İndi isə həm idmanla məşğul olmaq, həm də sağlam həyat tərzini formalaşdırmaq üçün əlverişli infrastruktur mövcuddur. Müsahibimiz bildirdi ki, bu məkan təkcə gənclər üçün deyil, yaşlı sakinlər üçün də böyük üstünlüklər verir. Günün müəyyən hissəsini burada keçirir, gəzinti edir, həm də yüngül idman hərəkətləri edərək sağlamlığımızı qorumağa çalışırıq. İnsanların bir araya gəlməsi, ünsiyyət qurması da məhəllədə daha pozitiv və sağlam mühit yaradır. Rayon sakinlərinin fikrincə, “Sağlam məhəllə” layihəsi həm əhalinin gündəlik aktivliyini artırır, həm də məhəllədə sosial mühitin daha dinamik, daha canlı olmasına səbəb olur.



Güləş idman növü ilə məşğul olan 6-cı sinif şagirdi Məhəmməd İmanov isə bildirdi ki, hər gün buraya gələrək futbol oynayır: “Əvvəllər idman etmək üçün uzağa getməli olurduq. İndi isə dərsdən sonra dostlarımla bura gəlir, həm futbol oynayırıq, həm də trenajor alətlərindən istifadə edirik. İdman artıq gündəlik vərdişimizə çevrilib. İdmanı çox sevirik. Çalışırıq ki, hər gün buraya gəlib idman edək. Burada vaxtımız daha səmərəli keçir”.



Məktəbli söhbəti zamanı layihənin bütün uşaqlar üçün böyük imkan yaratdığını da əlavə edir. Elə ətrafa nəzər saldıqda uşaqların gülüş səsləri və sevinc dolu anlarının şahidi oluruq.

Qeyd edək ki, hər bir yeniyetmə və gənc üçün fiziki aktivliyin əlçatan olması sağlam cəmiyyətin əsas şərtidir.



## Şahmatçılar arasında muxtar respublika birinciliyinə yekun vurulub



Azərbaycan Şahmat Federasiyasının təşəbbüsü və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə fevralın 2-dən Naxçıvan Şəhər Uşaq-Gənclər Şahmat Məktəbində keçirilən 8-18 yaşlı şahmatçılar arasında Naxçıvan Muxtar Respublika birinciliyinə fevralın 7-də yekun vurulub.

Altı fərqli yaş qrupu üzrə təşkil olunan yarışda muxtar respublikanın müxtəlif bölgələrindən 100-ə yaxın oğlan və qız şahmatçı mübarizə aparıb.

Yarışlar “İsveçrə” və dairəvi sistem üzrə təşkil edilib. Hər bir iştirakçıya oyunun sonunadək 45 dəqiqə vaxt verilib, ilk gedişdən etibarən isə hər gedişə 15 saniyə əlavə olunub. FIDE qaydalarına uyğun keçirilən yarışda xalların bərabər olduğu hallarda yerlər Buxqolts əmsalı, qələbələrin sayı və şəxsi görüşlərin nəticələrinə əsasən müəyyənləşdirilib.

Yarışın yekun nəticələrinə əsasən hər yaş kateqoriyası üzrə ilk 3 yeri tutan şahmatçılar 8-18 yaş kateqoriyası üzrə mart ayında keçiriləcək ölkə çempionatında iştirak haqqı qazanıblar.



**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

*Naxçıvan Müəllimlər İnstitutu PHŞ aşağıdakı kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

**I. Fakültə dekanı vəzifəsi:**

- Təbiət və incəsənət fakültəsi
- Pedaqoji fakültə

**II. Kafedralar üzrə digər vəzifələr:**

**Pedaqogika və psixologiya kafedrası üzrə:**

-Dosent-1 (1 yer-1ştat)

**Riyaziyyat və informatika kafedrası üzrə:**

-Dosent-1 (1 yer- 0,5 ştat)

**İncəsənət kafedrası üzrə:**

-Baş müəllim-2 (1 yer-1 ştat, 1 yer-0,5 ştat)

**Humanitar və ictimai fənlər kafedrası üzrə:**

- Müəllim-1 (1 yer-1 ştat)

**Azərbaycan dili və ədəbiyyatı kafedrası üzrə:**

-Dosent-2 (1 yer-1 ştat,1 yer-0,5 ştat)

Fakültə dekanı vəzifəsini tutmaq üçün müsabiqədə “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud təlimati tələblərə uyğun şəkildə rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2, Naxçıvan Müəllimlər İnstitutu, rektorluq***

### *İtmişdir*

Babək rayonu, Nəzərabad kəndində Əliyev Ənvər Bilal oğlunun adına olan JN-363[C] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayon sakini Novruzov Cəmşid Salman oğlunun adına olan SX-0223292 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Daşarx kənd sakini Məmmədova Nazilə Vəli qızının adına olan JN-292 nömrəli, 10213038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhərində yaşamış Əliyeva Fatma Məmmədhüseyn qızının adına olan Ordubad şəhəri, C.Məmmədquluzadə küçəsi, döngə 10, ev 7 ünvanında yerləşən fərdi yaşayış evinə aid 2471 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Hüseynli Ülvi Garay oğlunun adına verilmiş zabitin MN-0058016 nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Tağızadə İlqar Şöqi oğluna məxsus JN-916 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aşağı Aralıq kənd sakini Talıbov Əyyub Məhərrəm oğluna məxsus JN-501[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 28

Nömrəyə məsul: Bülbül Rövşənqızı, Günay Hacıyeva, Zəhra Vəliyeva
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.